## MÜASİR MÜSTƏQİL AZƏRBAYCAN ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İDEYALARI ƏSASINDA İNKİŞAF EDİR

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri əvəzsizdir. Ulu Öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan...




Bax səh. 4

## HEYDƏR ƏLİYEV İDEYALARI ƏSASINDA UĞURLA DAVAM ETDİRİLƏN İSLAHATLAR KURSU AZƏRBAYCANIN QARŞISINDA YENİ PERSPEKTİVLƏR AÇIR

Müasir müstəqil Azərbaycan tərəqqi yolunda inamla irəliləyir, inkişaf və yüksəliş mərhələsi yaşayır. Azərbaycanın mütərəqqi və nümunəvi inkişaf modeli dünyada diqqəti cəlb edir, qazanılan uğurlar davamlı xarakter daşıyır. Heç şübhəsiz, bütün bu nailiyyətlər asanlıqla əldə edilməyib və bugünkü inkişafın, yüksəlişin təməlində milli maraqlara, qlobal çağırışlara uyğun həyata keçirilən uzaqgörən siyasət dayanır...



Bax səh. 7




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 09 may 2019-cu il, cümə axşamı / № 084 (5459). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycanda 2019-cu ilin birinci rübündə ÜDM istehsalı 3 faiz artıb



*Prezident İlham Əliyev: Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir və əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq*



## Prezidentin iş günü

Prezident İlham Əliyev İsrail Dövlətinin Prezidenti Reuven Rivlinə təbrik məktubu göndərib.

### Ümummilli Lider Heydər Əliyevin xatirəsi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında anılıb

Mayın 8-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin həyatı boyunca Azərbaycan naminə göstərdiyi xidmətlər misilsizdir. Bu görkəmli şəxsiyyətin onilliklər ərzində Vətənə, xalqa xidmətinin cövhərində böyük mənəviyyat sahibi olması dayanır. Milli və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızı...

Bax səh. 7

### *Şeyxülislam Allahşükür Paşazadə:* Prezident İlham Əliyev bəşəriyyətin mənəvi ehtiyac duyduğu qlobal ideyalar irəli sürür



...Bismillahir-rəhmanir-rəhim! Peyğəmbər Salavatullahın hədisi vardır ki, Allah-Təala bir xalqı istəsə, o xalqa müdrik rəhbər, öndər göndərəcək və bu xalqı zülmətdən nura tərəf aparacaq...

Bax səh. 2



## NAZİRLƏR KABİNETİNİN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Mayın 8-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov Azərbaycan musiqisinin beşiyi, ölkəmizin əsrarəngiz gözəlliyə malik guşələrindən biri hesab edilən Şuşa şəhərinin erməni qəsbkarları tərəfindən işğalından 27 il ötdüyünü bildirib...

Bax səh. 3

## YAP AĞSTAFA RAYON TƏŞKİLATI ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 96-CI İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ SİLSİLƏ TƏDBİRLƏR KEÇİRİR

Yeni Azərbaycan Partiyasının (YAP) Ağstafa rayon təşkilatı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə silsilə tədbirlər keçirir. Bu tədbirlər çərçivəsində mayın əvvəlindən başlayaraq Ağstafa rayonunun təhsil müəssisələrində oxuyan şagirdlər üçün Heydər Əliyev Mərkəzinə ekskursiyalar təşkil edilir. Ekskursiyaların təşkil olunmasında məqsəd Ulu Öndər Heydər Əliyevin zəngin irsini şagirdlərə aşılamaq və şagirdlərin asudə vaxtlarını səmərəli təşkil etməkdir. Eksursiyalar zamanı şagirdlərə Ulu Öndər Heydər Əliyevin keçdiyi ömür yolu, həmçinin Azərbaycan tarixində rolu və demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasəti barədə ətraflı məlumat verilir. Həmçinin dahi liderin diqqət və qayğısı sayəsində digər sahələr kimi...

Bax səh. 7



## MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV ROMADA YÜKSƏK SƏVİYYƏLİ RƏSMİ GÖRÜŞLƏR KEÇİRİB

Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərliyi ilə parlament nümayəndə heyəti İtaliyada səfərdədir. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin tərkibinə İtaliya ilə parlamentlərarası əlaqələr üzrə...

Bax səh. 3

### YAP Nəsimi rayon təşkilatının üzvləri Heydər Əliyev Mərkəzində olublar

Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə silsilə tədbirlər keçirir. Bu tədbirlər çərçivəsində rayon təşkilatının üzvləri Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Ziyarət zamanı gənclərə Heydər Əliyev Mərkəzinin fəaliyyəti barədə məlumat verilib. YAP Nəsimi rayon təşkilatının üzvləri Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən stendlərə, fotosərgilərə tamaşa ediblər...

Bax səh. 5

### *Nazir Mikayıl Cabbarov:* Vergi islahatları çox vacib prosesdir və davam etdiriləcək



Vergi inzibatçılığının səmərəliliyinin artırılması məqsədilə bir çox sahələrdə və klasterlərdə sistemli tədbirlər həyata keçirilib. Yeni vergi dəyişiklikləri müsbət nəticələrini verməkdədir. Biz Azərbaycanda fəaliyyət göstərən sərmayədarlar...

Bax səh. 3

### Ümummilli Lider Heydər Əliyevin xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanmasında tarixi xidmətləri əvəzsizdir



...Xalqların və dövlətlərin tarixi inkişaf yoluna müxtəlif hadisələr və proseslərin fonunda nəzər saldıqda lider amilinin...

Bax səh. 5

### Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətləri hər zaman minnətdarlıqla xatırlanacaq



...Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi elə bir tarixi şəxsiyyətdir ki, Onun haqqında danışanda...

Bax səh. 6

### KİVDF-nin təşkilatçılığı ilə media rəhbərləri "Azərenerji"nin fəaliyyəti ilə yaxından tanış olublar



Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun...

Bax səh. 8

### Azərbaycan Dünya Neft Şurasının 2023-cü ildə keçirəcəyi Konqresə ev sahibliyini irəli sürüb



Azərbaycanın Dünya Neft Şurasının (WPC) 2023-cü ildə keçirəcəyi 24-cü Dünya Neft Konqresinə ev sahibliyi irəli sürülüb. AZƏRTAC xəbər verir ki...

Bax səh. 5

# Azərbaycanda 2019-cu ilin birinci rübündə ÜDM istehsalı 3 faiz artıb

## *Prezident İlham Əliyev: Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir və əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq*

Son 15 ildə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət, dərinməzmunlu islahatlar kursu ölkəmizin inamlı inkişafını təmin edib. Əsas məqamlardan biri də ondan ibarətdir ki, Azərbaycan mütəmadi qaydada uğurların miqyasını genişləndirmək, inkişafın ardıcıllığını təmin etmək əzmi ortaya qoyur. Təsadüfi deyil ki, respublikamız dünyanın bir sıra ölkələrində çox ciddi fəsadlarla müşayiət olunan qlobal iqtisadi böhranın mənfi təsirlərini uğurla dəf etməyə nail olub. 2019-cu ilin birinci rübünün göstəricilərinə istinadən deyə bilərik ki, hazırda milli iqtisadiyyatımız bütünlüklə inkişafa istiqamətlənib. Ölkədə makroiqtisadi sabitlik təmin edilir, inflyasiya cəmi 2,1 faiz səviyyəsindədir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ilin əvvəlindən bəri əldə olunan uğurlardan məmnunluqla söhbət açıb. **"İqtisadi və sosial sahədə aparılan siyasət rəqəmlərdə də özünü büruzə verir. Beləliklə, ilin birinci rübündə ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir və əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq",** - deyə dövlət başçısı vurğulayıb.

### SƏNAYE İSTEHSALI 4,4 FAİZ, QEYRİ-NEFT SEKTORUNDA SƏNAYE İSTEHSALI İSƏ 15,6 FAİZ ARTIB

Hazırda dünya dördüncü sənaye inqilabına doğru irəliləyir. Müasirləşməni strateji hədəf seçən Azərbaycan da özünün geniş imkanlarından - zəngin təbii sərvətlərindən, tarixən formalaşan ənənələrindən, insan resurslarından bəhrələnməklə yüksək sənaye inkişafına, əlxüsus da qeyri-neft sənayesində istehsal imkanlarının genişləndirilməsinə nail olmağı hədəfləyib. Son illərdə respublikamızda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında uğurla həyata keçirilən yeni nəsil islahatların bir qismi məhz sənaye quruculuğunun təşviq edilməsinə, bu sektora investisiya qoyuluşunun artırılmasına hesablanıb. Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, Azərbaycanda sənaye inkişafının diqqət mərkəzində saxlanılması Davos İqtisadi Forumunda da yüksək dəyərləndirilib. Davosda Prezident İlham Əliyevlə Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında keçirilən görüşdə Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyulub. Bu məqsədlə Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirilib. Bəhs olunan görüşdə Dünya İqtisadi Forumunun prezidenti Borge Brende Azərbaycanın dördüncü sənaye inqilabına doğru qətiyyətli addımlar atdığını qeyd edib. Söhbət zamanı Prezident İlham Əliyev Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlıq sazişinin vacibliyini qeyd edərək deyib ki, bu sənəd bizim tərəfdaşlıq ruhumuzu və qarşılıqlı səylərimizi davam etdirməkdə istəkli olduğumuzu nümayiş etdirir. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan dördüncü sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcək.

Ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq sənaye quruculuğuna hərtərəfli dəstək göstərilməsi öz müsbət nəticəsini verir. Hazırda sənaye sektoru milli iqtisadiyyatımızın aparıcı istiqamətlərindən biri qismində çıxış edir. Yeni şəraitdə Azərbaycan iqtisadiyyatında ən yaxşı inkişaf göstəriciləri məhz sənaye sektorunda qeydə alınır. Xüsusilə ölkəmizdə qeyri-neft sənayesinin üstün inkişafının təmin edilməsi məmnunluq doğurur. Bütövlükdə, son illərdə ölkədə metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və Azərbaycan üçün ənənəvi olan digər sənaye sahələri genişlənib, həmçinin yeni sənaye sahələri də formalaşıb. Qısa müstəqillik tarixində Azərbaycanın dünya kosmos ailəsinin üzvünə çevrilməsi, xarici bazarlara ənənəvi mallarla yanaşı, yüksək rəqabət qabiliyyətinə malik hərbi təyinatlı məhsullar çıxartması son dərəcə qürurverici haldır. Son 15 ildə ölkəmizdə sənaye istehsalı 2,6 dəfə artıb ki, bu da kifayət qədər yaxşı göstəricidir. Sənaye sektorunda, o cümlədən də qeyri-neft sənayesində istehsalın genişlənməsi cari ilin əvvəlindən də davam edib. Prezident İlham



Əliyev ilin birinci rübündə sənaye sektorunda əldə olunan uğurları ölkədə aparılan məqsədyönlü siyasətin nəticəsi kimi səciyyələndirərək deyib: **"Sənaye istehsalı 4,4 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Amma bundan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artmışdır. Bax, gördüyümüz işlərin nəticəsi budur və sənaye istehsalının, xüsusilə qeyri-neft sektorunda sənaye istehsalının artırılması bizim siyasətimizin bariz nümunəsidir".**

Cari ilin birinci rübündə istifadəyə verilən nəhəng müəssisələr hesabına Azərbaycanın sənaye xəritəsi daha da zənginləşib. 2019-cu ilin yanvarında Sumqayıt Kimya Sənaye Parkının ərazisində istifadəyə verilən "SOCAR karbamid" zavodu hazırda ölkədə qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihədir və ümumi dəyəri təxminən 800 milyon avro təşkil edir.

Cari il fevralın 18-də respublikamızın çoxsaylı sənaye müəssisələri sırasına daha bir nəhəng istehsalat əlavə olunub. Belə ki, bəhs olunan tarixdə Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodu Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Xatırladaq ki, Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən ilk müəssisə - polipropilen zavodu 2018-ci il iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizdə səfərdə olan İtaliya Prezidenti Sercio Mattarellanın iştirakı ilə istifadəyə verilib. Haqqında bəhs olunan layihənin əsas məqsədi idxalın əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır.

### AZƏRBAYCANDA BİZNES MÜHİTİ GETDİKCƏ DAHA DA YAXŞILAŞIR

Son illərdə Azərbaycanda müşahidə edilən müsbət reallıqlardan biri də ondan ibarətdir ki, ölkədə iqtisadi fəallığın təmin olunmasında özəl bölmənin rolu getdikcə artır. Bu da ilk növbədə o amillə şərtlənir ki, respublikamızda sahibkarlığın inkişafına dövlət tərəfindən davamlı olaraq dəstək göstərilir.

Yeni şəraitdə sahibkarlığın maliyyə resursları ilə təmin olunması əsas mexanizmlərdəndir. İndiyədək investisiya layihələrinin ümumi dəyəri 5,1 milyard manat olan 35 mindən çox sahibkara 2,3 milyard manat güzəştli kredit verilib. Güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür.

Paralel şəkildə sahibkarlara dəstək mexanizmi getdikcə təkmilləşdirilir. Dövlət başçısının "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 31 iyul tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb və "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası" təsdiq edilib. Sənədə əsasən, güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6 faizdən 5 faizə endirilib. Eyni zamanda, yeni qaydalarda ortahəcmli kreditlərin hədləri dəyişdirilərək 1 000 000 manatadək artırılıb.

Belə genişmiqyaslı dəstək tədbirlərinin nəticəsi olaraq respublikamızda güclü sahibkarlar ordusunun formalaşması məmnunluq doğurur. Qeyd edək ki, son 15 ildə Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı 4,3 dəfə, o cümlədən sahibkarlıq fəaliyyəti göstərən hüquqi şəxslərin sayı 2 dəfə artıb. Bəhs olunan dövrdə respublikamızda hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayı isə 5,1 dəfə artıb. Ölkəmizdə biznes mühitinin getdikcə daha da yaxşılaşmasından məmnunluğunu bildirən Prezident İlham Əliyev vurğulayıb: **"Azərbaycanda biznes mühiti yaxşılaşır, sərmayə qoyuluşu üçün daha yaxşı şərait yaradılır, həm yerli, həm xarici sərmayələr dövlət tərəfindən lazımi səviyyədə qorunur. Beləliklə, biz xarici və daxili sərmayəni cəlb etməklə ölkəmizi inkişaf etdiririk".**

### ÖLKƏNİN QAZANDIĞI ƏLAVƏ MALİYYƏ VƏSAİTİ İMKAN VERİR Kİ, SOSİAL SAHƏ DAHA DA GÜCLƏNDİRİLSİN

Diqqəti çəkən əsas məqamlardan biri də ondan ibarətdir ki, dinamik iqtisadi inkişafın, aparılan islahatların, o cümlədən də şəffaflığın yüksək səviyyədə təmin edilməsinin real nəticəsi olaraq 2019-cu ilin birinci rübündə respublikamızda büdcə daxilolmaları ciddi şəkildə - 200 milyon manatdan çox artıb. Bu əlavə gəlirlərin təxminən 150 milyon manatı vergi daxilolmalarının, 50 milyon manatdan çox hissəsi isə gömrük rüsumlarının sayəsində qazanılıb. Sevindirici hal ondan ibarətdir ki, vergi orqanları qeyri-neft sektorundan daha çox - 136 milyon manat vergilər toplamağa müvəffəq olub. Azərbaycanın sosial siyasət strategiyasına uyğun olaraq əlavə gəlirlər ilk növbədə sosial sahəyə yönəldilir. Ölkəmizi fərqləndirən bu cəhətə diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: **"Əsas iqtisadi və sosial göstəricilər müsbətdir, dinamika təmin edilir. Əlavə gəlirlərimiz imkan verir ki, biz sosial məsələlərin həllində daha fəal olaq və daha böyük işlər görək. Bildiyiniz kimi, ilin əvvəlindən çox böyük həcmli sosial paket təqdim edildi, təsdiqləndi, müvafiq fərmanlar imzalandı. Bu prosesə hazırlığı biz keçən ildən başlamışdıq və prezident seçkilərindən sonra andiçmə mərasimində, əslində, görüləcək işlərlə bağlı mənim tərəfimdən göstərişlər verildi, yeni yanaşmanın konturları müəyyən edildi. Əlavə maliyyə vəsaiti imkan verir ki, biz sosial sahəni daha da gücləndirək. Minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər artmışdır. Nəyin hesabına, əlbəttə ki, islahatların hesabına. Ona görə ki, biz daha səmərəli işləyirik, şəffaflığı təmin edirik, biznes mühiti yaxşılaşır. Bu, bizə imkan verir ki, bu məsələləri həll edək".**

Bütövlükdə, Azərbaycanın yüksək inkişaf göstəricilərinə nail olmasını və özünü dünyaya hər cəhətdən nümunəvi ölkə kimi təqdim etməsini şərtləndirən amillər sırasında respublikamızın maliyyə təminatının möhkəmlənməsinin önəmini xüsusi vurğulamaq lazımdır. Azərbaycan dünyanın azsaylı ölkələrindəndir ki, qlobal çətinliklər şəraitində belə maliyyə imkanlarını genişləndirməyə və özünün strateji valyuta ehtiyatlarını ilbəil artırmağa nail olub. Hazırda respublikamızın strateji valyuta ehtiyatları 45 milyard dollara çatıb ki, bu da kifayət qədər böyük rəqəmdir. Əlamətdar haldır ki, respublikamız adambaşına düşən valyuta ehtiyatlarına görə dünyada öncül mövqelərdən birini bölüşür. Respublikamızın xarici borclanması da kifayət qədər aşağı səviyyədədir.

**Mübariz ABDULLAYEV**

# Şeyxülislam Allahşükür Paşazadə: Prezident İlham Əliyev bəşəriyyətin mənəvi ehtiyac duyduğu qlobal ideyalar irəli sürür



*Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə AZƏRTAC-a məxsusi müsahibə verib. Müsahibədə Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi və "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamlarından, bu istiqamətdə görülən işlərdən söhbət açılır.*

**- Şeyx həzrətləri, dövlətimiz dinə və dindarlara hər zaman qayğı göstərir. Prezident İlham Əliyevin son sərəncamları bu qayğının bariz nümunəsidir. Bu barədə nə deyə bilərsiniz?**

- Bismillahir-rəhmanir-rəhim!

Peyğəmbər Salavatullahın hədisi vardır ki, Allah-Təala bir xalqı istəsə, o xalqa müdrik rəhbər, öndər göndərəcək və bu xalqı zülmətdən nura tərəf aparacaq. Şükürlər olsun ki, Azərbaycana belə rəhbərlər lütf edilib və bu şəxsiyyətlərin ümumbəşər əhəmiyyətli ideyaları sayəsində ölkəmiz, xalqımız adını dünyanın tarix salnaməsinə həkk etməyə nail olub.

Bəli, Azərbaycan Prezidentinin önəmli qərarları sırasında 70 illik yubileyim və Şeyxülislam kimi fəaliyyətə başlamağımın 40 illiyi münasibətilə verdiyi sərəncamlar xüsusi yer tutur. Mən dövlətçiliyimiz, bölgəmizin tarixi üçün əhəmiyyətli olan bu sərəncamları həm şəxsimə, həm də Azərbaycan dindarlarına olan yüksək hörmət və etimadın göstəricisi, eyni zamanda, milli-mənəvi dəyərlərə ali diqqətin bariz nümunəsi kimi qəbul edirəm. Qafqaz bölgəsi dindarlarının, dini icma və konfessiya rəhbərlərinin arzu və iradəsini ifadə edərək dövlətimizin başçısına minnətdarlıq məktubu ünvanlamışıq. Bir daha təşəkkürlərimi Azərbaycanın liderinə, dünya miqyaslı dövlət xadiminə ünvanlamaqdan şərəf duyuram. Zati-aliləri sayəsində nail olduğumuz hər bir uğur dünya müsəlmanlarının, Azərbaycan ictimaiyyətinin və dini mühitimizin nəzərində əlamətdar və tarixi hadisəyə çevrilir.

Ölkəmizi bütün sahələrdə inkişaf mərhələsinə qaldıran, dini-mədəni mühitin tərəqqisini təmin edən, sosial-iqtisadi islahatları ilə xalq-dövlət birliyini möhkəmləndirən Prezidentimiz yüksək təfəkkürü sayəsində XXI əsrdə bəşəriyyətin mənəvi ehtiyac duyduğu və zamanın tələblərinə cavab verən ideyalar irəli sürür və onların reallaşdırılması istiqamətində əməli səylər göstərir. Bu, Uca Yaradanımızın buyurduqlarına uyğun olan, müqəddəs amallara xidmət edən və insanlığın vəhdəti, həmrəyliyinə rəvac verən önəmli missiyadır. Dünya ictimaiyyəti bunu görür və yüksək dəyərləndirir.

Müxtəlif qitələrin nümayəndələrinin, fərqli din və mədəniyyətlərin təmsilçilərinin Prezident İlham Əliyevin elan etdiyi "Multikulturalizm İli" və "İslam Həmrəyliyi İli" kimi qlobal əhəmiyyətli ideyalar ətrafında bir araya gəlməsi böyük nailiyyətdir. Dünyanın multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycan Respublikasında sivilizasiyalararası və dinlərarası dialoqa töhfə verən nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi artıq ənənəyə çevrilib. Beynəlxalq ictimaiyyəti narahat edən humanitar problemlər 2008-ci ildən etibarən mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsini nəzərdə tutan "Bakı Prosesi" çərçivəsində müzakirə olunur, dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri, dövlət rəsmiləri, nüfuzlu alim və ziyalıları arasında səmərəli fikir mübadilələri aparılır. Bu baxımdan 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş Sammiti sivilizasiyalararası dialoqun inkişafına, müxtəlif dini konfessiyaların əməkdaşlığının genişlənməsinə, eləcə də qarşılıqlı etimad mühitinin yaradılması işinə böyük töhfə olmuşdu.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 2019-cu il noyabrın 14-15-də Bakı şəhərində Dünya dini liderlərinin II sammiti keçiriləcək. Bu sammit çərçivəsində ayrı-ayrı regionlarda gedən mürəkkəb etnik-dini proseslərin və qloballaşan dünyanın müasir çağırışlarının nüfuzlu dini-ictimai xadimlərin iştirakı ilə birgə müzakirəsi aktuallıq və dəyər kəsb edir. Əminik ki, müxtəlif milli, dini, mədəni mənsubiyyət daşıyıcıları arasında qarşılıqlı etimad, anlaşma mühitinin yaradılması baxımından böyük əhəmiyyət daşıyan bu tədbir dünyada sülhün, əmin-amanlığın, multikulturalizmin, dinlər və millətlər arasında əlaqələrin möhkəmlənməsi işinə layiqli töhfəsini verəcək. Bu, Azərbaycanımız üçün böyük uğurdur.

Din xadimi olaraq, xüsusən şadam ki, Azərbaycan iqtisadi, siyasi, diplomatik sahədə uğurları ilə yanaşı, nümunəvi dini-mənəvi həyatı ilə də dünyanın diqqət mərkəzindədir. Biz dünya miqyasında dinlərarası əməkdaşlığın uğurlu ənənəsinə hər zaman sadiqik. Əlbəttə, Azərbaycanın bu sahədə uğurlarını şərtləndirən məqamlardan ən mühümü odur ki, ölkəmizdə din-dövlət münasibətləri düzgün qurulub. Tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Azərbaycanda müxtəlif dini mənsubiyyətə malik insanlar özlərini cəmiyyətimizin ayrılmaz tərkib hissəsi hiss edir, dövlətin diqqətini, qayğı və himayəsini eyni dərəcədə hiss edirlər.

Düşünürəm ki, Azərbaycan öz uğurlu multikulturalizm modelini dünya səviyyəsində tanıda bilib. Allah doğru yolda, haqq yolunda olanlara rəvac verir, düzgün addımlar atanlara hər zaman yardımçı olur. Əminəm ki, bu nailiyyətlərə görə əziz qardaşım Heydər Əliyevin də ruhu şaddır. Belə ki, bu uğurlu siyasətin əsası dünyaca tanınmış müdrik öndərimiz, bu günlərdə anadan olmasının növbəti ildönümünü qeyd etdiyimiz Heydər Əliyev tərəfindən qoyulub və bu xətti Prezident İlham Əliyev yüksək səviyyədə davam və inkişaf etdirir. Allah Heydər Əliyev həzrətlərinə rəhmət eləsin!

Dindarlarımız hər zaman dövlətimizin başçısına Azərbaycan naminə misilsiz fəaliyyətində daha möhtəşəm uğurlar qazanması üçün dualar edirlər. Prezidentimiz hər zaman xalqın içindədir, onun qayğıları ilə yaşayır, ehtiyacı olanın, kimsəsizin, dara düşənin, təbii fəlakətdən əziyyət çəkənin, ağsaqqalın, ağbirçəyin, uşaqların, əsgərin, məcburi köçkünün yanındadır. Azərbaycan xalqının dövlətimizin başçısına olan sonsuz etimadı, dəstəyi və məhəbbəti onun rifah və tərəqqisi üçün böyük zəhmətlər çəkən Prezident İlham Əliyevə ən dəyərli mükafatdır.

Uca Allah belə əməllər sahibinin bütün səylərinə rəvac verər. Biz dindarlar dövlətimizin başçısının xalqımızın rifahının daha da yaxşılaşdırılması üçün gördüyü işləri yüksək dəyərləndiririk. Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyədə təmin edilməsi istiqamətində əməli addımları, milli-mədəni irsin qorunması işinə göstərilən maddi və mənəvi yardımı, dini abidələrə dövlət səviyyəsində qayğı və himayəni müdrik siyasətin nümunəsi kimi dəyərləndiririk. Biz, Prezidentimizə din xadimlərinə ali diqqət və davamlı maddi-mənəvi qayğısına görə hədsiz minnətdarlığımızı çatdırmaqdan şərəf duyuruq. Biz Uca Allahın lütfü, Prezidentimizin rəhbərliyi ilə gələcəyimizə ümidlə baxır, dövlətimizin, xalqımızın daha böyük uğurlara imza atacağına inanırıq. Dini mərkəz olan Qafqaz Müsəlmanları İdarəsi başda olmaqla, bütün dindarlar Prezident İlham Əliyevin yanındadırlar və Azərbaycanın səadətini təmin edən siyasətini hər zaman dəstəkləyir, xalqımızın və dövlətimizin tərəqqisi naminə gördüyü dəyərli işlərə Uca Yaradanımızdan rəvac diləyirlər.

**- Dövlətimizin başçısının imzaladığı sərəncamlarla bağlı hansı işlər görülüb və görülməsi nəzərdə tutulur?**

- Dövlətimizin başçısının imzaladığı sərəncamlara uyğun olaraq yaradılmış Təşkilat Komitəsinin sədri Baş nazirin müavini Əli Əhmədovun rəhbərliyi ilə iclas keçirilib. Artıq dünya dini liderlərinin II Bakı Sammitinə dəvət olunacaq qonaqların siyahısı dəqiqləşdirilib və dəvətlər ünvanlarına göndərilib. Sammitin miqyasına, əhəmiyyətinə və statusuna uyğun təşkilati - texniki işlər başlanılıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də öz növbəsində, sərəncamlardan irəli gələn məqamlara dair tədbirlər planı hazırlayıb. Təşkilat Komitəsində təmsil olunan rəsmilər, dini icma rəhbərləri, elm adamları, media rəhbərləri ümumölkə əhəmiyyətli tədbir olan bu Sammitin təşkili işinə öz töhfələrini verirlər və İnşallah, bu səylər ən yüksək şəkildə öz nəticəsini göstərəcək.

**- Son görüşlərinizdə Vyana şəhərində keçiriləcək konfransın mesajını verdiniz. Bu konfransın gündəliyində hansı məsələlər var? Dağlıq Qarabağ məsələsini Vyana konfransında da qaldıracaqsınızmı?**

-Bəli, 2017-ci ilin sonunda "İslam Həmrəyliyi İli"nin yekunlarına həsr olunan Bakı konfransında iştirakçıların yekdil fikri əsasında, dinlərarası və sivilizasiyalararası əməkdaşlıq ideyalarının davamlı şəkildə təbliğ olunması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində müxtəlif ölkələrin nüfuzlu din və ictimai xadimlərindən ibarət Bakı Beynəlxalq dinlər və sivilizasiyalararası əməkdaşlıq Mərkəzi təsis olundu. Bu Mərkəzin xətti, Xarici İşlər Nazirliyi və mənzil-qərargahı Vyanada yerləşən KAİCİİD beynəlxalq dinlər və mədəniyyətlərarası dialoq Mərkəzinin dəstəyi, Avstriyanın müvafiq dövlət, qeyri-hökumət təşkilatları, dini və elm mərkəzləri ilə birgə bu il iyunun 19-20-də Vyana şəhərində "Sivilizasiyalar və dinlərarası dialoqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans keçiriləcək.

Konfransda "Sivilizasiyalararası və dinlərarası dialoqun bəşəri həmrəyliyə doğru inkişafı dünyada sülhün və əmin-amanlığın bərqərar olmasına və dini tolerantlıq ideyalarının tərənnümünə xidmət edir", "Terrorizm, ekstremizm, separatizm, ksenofobiya, islamofobiya dinlərarası dialoqa və həmrəyliyə təhdid kimi", "Gənclərin maarifləndirilməsində, mədəni və mənəvi irsin qorunmasında sivilizasiyalar və dinlərarası əməkdaşlığın rolu", "İnsan hüquqlarının qorunması sahəsində sivilizasiyalar və dinlərarası dialoqun əhəmiyyəti, insanlara qarşı zorakılıq halları - irqi və dini dözümsüzlük, işğalçılıq, etnik təmizləmə siyasətinə məruz qalmış qaçqın və məcburi köçkünlərə, miqrantlara mərhəmət və qayğı göstərməyin vacibliyi", "Münaqişə zonalarında etnomədəni və dini abidələrin dağıdılması və zorakılığa məruz qalması", "Dövlət, elm və din xadimlərinin sivilizasiyalararası və dinlərarası dialoqun və əməkdaşlığın təşviqində birgə səylərinin rolu" mövzularında müzakirələr aparılacaq. Bunlarla yanaşı, böyük Azərbaycan mütəfəkkiri İmadəddin Nəsiminin ümumbəşəri, multikultural ideyalarının dövrümüz üçün aktuallığı mövzusu da gündəmə gətiriləcək.

Allahın yaratdığı ən böyük dəyər insan həyatıdırsa, onun xilası müxtəlif millətlərə və dinlərə mənsub insanların qarşılıqlı anlaşma və ehtiramından, müxtəlif mədəniyyətlərin dialoqundan keçir. Bu, Uca Yaradanımıza xoş olan mənəvi üstünlükdür, bəşəri ucaldan dəyərdir. Biz bu məqamı xalqımızın ən ağrılı yeri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələdə də unutmur, problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli sülh yolu ilə həllində israr edirik.

Bu günədək iştirak etdiyim elə bir beynəlxalq tədbir, çıxış etdiyim elə bir xitabət kürsüsü olmayıb ki, oradan xalqımızın ən böyük problemi olan Qarabağ məsələsini xatırlatmayım, ərazilərimizin 20 faizinin işğal altında olduğunu, dini-mədəni abidələrimizin dağıdılmasını, bir milyondan artıq qaçqın və məcburi köçkün soydaşlarımızın problemini qaldırmayım. Vyana konfransı da istisna olmayacaq. Avropanın mərkəzində biz bütün dünya ictimaiyyətinin diqqətini Qarabağ probleminə yönəltmək fürsətindən istifadə edəcəyik.

Qoy Uca Allah lütf və mərhəmətini hər zaman Azərbaycan xalqı və dövləti üzərində bərqərar etsin! İnşallah!

# Nazirlər Kabinetinin növbəti iclası keçirilib



Mayın 8-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov Azərbaycan musiqisinin beşiyi, ölkəmizin əsrarəngiz gözəlliyə malik guşələrindən biri hesab edilən Şuşa şəhərinin erməni qəsbkarları tərəfindən işğalından 27 il ötdüyünü bildirib. **"İşğal nəticəsində Azərbaycanın füsunkar təbiətə malik bu şəhərindəki zəngin tarixi-mədəni abidələr, muzeylər dağıdılıb. Nüfuzlu beynəlxalq təşkilatların Ermənistanın işğalçılıq siyasətini pisləyən qərar və qətnamələrinə, dünyanın aparıcı dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə baxmayaraq, işğal hələ də davam edir. Dövlətimizin başçısı İlham Əliyevin də hər zaman qeyd etdiyi kimi, Azərbaycan heç vaxt indiki vəziyyətlə barışmayacaq və ərazi bütövlüyünü bərpa edəcək",** - deyə Baş Nazir vurğulayıb.

Xalqımızın Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünü qeyd etdiyini bildirən Novruz Məmmədov deyib ki, Ümummilli Liderimizin əziz xatirəsi hər bir Azərbaycan vətəndaşının qəlbində daim yaşayır və yaşayacaq. Baş Nazir deyib: **"Bu gün müstəqillik yolunda uğurla addımlayan və gündən-günə inkişaf edən Azərbaycanın qazandığı böyük nailiyyətlər məhz ulu öndər Heydər Əliyev dühasının bəhrəsidir. Hər birimiz bugünkü firavan həyatımıza, xoş gələcəyimizə görə əbədiyaşar liderimizə borcluyuq".**

Sonra Novruz Məmmədov iclasın gündəliyi barədə məlumat verib.

Bildirilib ki, iclasın gündəliyinə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icra vəziyyəti və yeni layihənin müzakirəsi, həmçinin "Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə qəbul planlarının tərtibi təcrübəsi və 2019-2020-ci tədris ili üçün tələbə qəbulu planının tərtib edilməsi" haqqında məsələlər daxil edilib.

Baş Nazir deyib ki, 1996-cı ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə işinin əlaqələndirilməsi məqsədilə komissiya yaradılıb. Prezident İlham Əliyev də ölkəmizdə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni mühüm vəzifə kimi müəyyənləşdirib. Dövlətimizin başçısı bununla bağlı qarşıya ciddi vəzifələr qoyub. Bu sahədə mühüm uğurların əldə olunduğunu vurğulayan Novruz Məmmədov qeyd edib ki, qazanılan nailiyyətlərdə müvafiq Dövlət proqramlarının mühüm rolu olub.

Azərbaycan dövlətinin təhsilin inkişafına xüsusi diqqət ayırdığını deyən Baş Nazir qeyd edib ki, son 15 ildə dövlət büdcəsindən bu sahəyə ayrılan vəsaitin 8 dəfə artırılması, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul edilməsi Prezident İlham Əliyevin təhsilə göstərdiyi böyük qayğının təcəssümüdür. Əsas məqsəd ölkəmizdə keyfiyyətli təhsil sisteminin qurulması, yüksəkixtisaslı, zəngin dünyagörüşlü kadrların yetişdirilməsindən ibarətdir.

Sonra daxili işlər nazirinin birinci müavini Vilayət Eyvazovun, təhsil naziri Ceyhun Bayramovun gündəlikdəki məsələlərlə bağlı məruzələri dinlənilib.

İclasda mövzularla bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.

# Milli Məclisin sədri Oqtay Əsədov Romada yüksək səviyyəli rəsmi görüşlər keçirib





Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərliyi ilə parlament nümayəndə heyəti İtaliyada səfərdədir.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin tərkibinə İtaliya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Azər Kərimli, deputatlardan Ülviyyə Ağayeva, Vahid Əhmədov, Elşad Həsənov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Səfər çərçivəsində nümayəndə heyəti İtaliya Senatının və Deputatlar Palatasının rəhbərliyi və Azərbaycan-İtaliya Dostluq Qrupunun təmsilçiləri ilə görüşüb.

Əvvəlcə Oqtay Əsədov İtaliya Respublikası Senatının yerləşdiyi Palazzo Madama sarayında ölkə parlamentinin qanunvericilik fəaliyyəti ilə yaxından tanış olub.

Sonra Milli Məclisin sədri İtaliya Respublikası Senatının sədri xanım Maria Elizabetta Alberti Kasellati ilə görüşüb. Oqtay Əsədov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu yaxınlarda İtaliyaya rəsmi səfərinin önəmini vurğulayaraq, səfər çərçivəsində Romadakı Custiniani sarayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlıq münasibətlərinə dair konfransın keçirildiyini xatırladıb, səfəri iki ölkə arasında qarışlıqlı hörmətin bariz nümunəsi kimi qiymətləndirib.

İtaliya-Azərbaycan əlaqələrinin möhkəm hüquqi baza üzərində qurulduğunu deyən Oqtay Əsədov diqqətə çatdırıb ki, ölkələrimiz arasında bu günədək 44 ikitərəfli sənəd imzalanıb.

Oqtay Əsədov qeyd edib ki, ölkələrimiz arasında mədəni, humanitar əlaqələr də inkişaf edir. Heydər Əliyev Fondu iki ölkə arasında siyasi, mədəni əlaqələrin möhkəmlənməsində böyük rol oynayır.

Sədr Azərbaycan-İtaliya parlamentlərarası əlaqələrinin yaxşı səviyyədə olduğunu vurğulayıb, dostluq qruplarının işini yüksək qiymətləndirib.

Görüşdə Milli Məclisin sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə də danışıb.

Xanım Maria Elisabetta Alberti Kasellati Azərbaycan ilə İtaliya arasında müxtəlif istiqamətlər üzrə, o cümlədən siyasi, iqtisadi, humanitar sahələrdə yaxşı əlaqələrin qurulduğunu, əməkdaşlığımızın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib.

Senatın sədri Heydər Əliyev Fondunun İtaliyada mədəni və humanitar sahələrdə, o cümlədən tarixi abidələrin bərpası ilə bağlı həyata keçirdiyi layihələrin ölkəsində yüksək dəyərləndirildiyini deyib, humanitar əlaqələrin daha da genişləndirilməsinin önəmini vurğulayıb.

Maria Elisabetta Alberti Kasellati İtaliya şirkətlərinin Azərbaycanda bir sıra iqtisadi layihələrdə uğurla iştirak etdiyini söyləyib. Senatın sədri bildirib ki, İtaliya şirkətləri Azərbaycanda nəqliyyat, kənd təsərrüfatı, müdafiə sənayesi, infrastruktur və digər sahələrdə fəaliyyət göstərməkdə maraqlıdır.

Azərbaycanın Avropanın, o cümlədən İtaliyanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirən Senatın sədri deyib ki, Cənub Qaz Dəhlizi gələcəkdə ölkələrimizin iqtisadi əməkdaşlığının daha da genişlənməsinə xidmət edir.

* * *

Səfər zamanı Oqtay Əsədov İtaliya Respublikasının Deputatlar Palatasının sədri Roberto Fiko ilə görüşüb.

Görüşdə vurğulanıb ki, İtaliya ölkəmizin Avropada və dünyada mühüm tərəfdaşlarından biridir. İki ölkə arasında sıx dostluq əlaqələri var, İtaliya və Azərbaycan yaxın dost və strateji tərəfdaşdır.

İkitərəfli münasibətlərin bütün sahələrdə yüksələn xətt üzrə inkişaf etdiyini deyən Oqtay Əsədov İtaliya və Azərbaycanın siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlıq əlaqələrindən danışıb.

İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın Azərbaycana ilk rəsmi səfərinə diqqət çəkən Oqtay Əsədov bildirib ki, bu səfər dövlətlərarası münasibətlərimizin tarixində mühüm əhəmiyyət kəsb edib.

İtaliya Respublikasının Deputatlar Palatasının sədri Roberto Fiko bildirib ki, ölkələrimiz arasındakı münasibətlər yüksək səviyyədədir, parlamentlərarası əlaqələr də inkişaf edir. Bu da iki ölkə arasında olan münasibətlərə öz töhfəsini verir.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi də müzakirə olunub.

* * *

Milli Məclisin sədri Oqtay Əsədov İtaliya parlamentində Parlamentlərarası İttifaq yanında İtaliya-Azərbaycan Dostluq Qrupunun və İtaliya-Azərbaycan Dostluq Assosiasiyasının üzvləri ilə də görüşüb.

Görüşdə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğu, parlamentlərarası əlaqələrin də yaxşı səviyyədə olduğu qeyd edilib.

Görüşdə enerji sahəsindəki uğurlu əməkdaşlıqdan da danışılıb.

İtaliya parlamentində Azərbaycanla Parlamentlərarası Dostluq Qrupunun sədri senator Stefano Luçidi də ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu bildirib. O, parlamentlərarası əlaqələrin inkişafının münasibətlərin dərinləşməsində mühüm rol oynadığını vurğulayıb.

Görüşdə iqtisadi, siyasi sahələrdə əlaqələrin inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

# Nazir Mikayıl Cabbarov: Vergi islahatları çox vacib prosesdir və davam etdiriləcək



Vergi inzibatçılığının səmərəliliyinin artırılması məqsədilə bir çox sahələrdə və klasterlərdə sistemli tədbirlər həyata keçirilib. Yeni vergi dəyişiklikləri müsbət nəticələrini verməkdədir. Biz Azərbaycanda fəaliyyət göstərən sərmayədarlar, biznesləri birləşdirən müxtəlif təşkilatlar, xarici ölkələrin ticarət palataları ilə fəaliyyətimizi bundan sonra da əlaqəli şəkildə quracağıq. Gələcəkdə bu məsələlər ətrafında fikir mübadiləsini davam etdirəcəyik. Yerli vergi orqanlarımız öz fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun qurmalıdır. Bu fikirləri AZƏRTAC-a məxsusi müsahibəsində Azərbaycan Respublikasının vergilər naziri Mikayıl Cabbarov söyləyib. Müsahibəni təqdim edirik.

**- Mikayıl müəllim, 2019-cu ilin 4 ayı arxada qalıb. Fiskal göstəricilər barədə nə deyə bilərsiniz və ümumilikdə vergi sahəsində ilkin nəticələr nəyi göstərir?**

- Biz 2019-cu ilin ilkin nəticələrini xüsusi səbirsizliklə gözləyirdik. Çünki ölkəmizin bir sıra digər sahələrində olduğu kimi, vergi sahəsində də genişmiqyaslı islahatlar həyata keçirilir. Bu islahatlara 2018-ci ildə dövlətimizin başçısının müəyyənləşdirdiyi siyasi çərçivəyə uyğun olaraq başlamışıq.

2018-ci ildə vergiödəyiciləri üçün keçid ili fəlsəfəsini təqdim etdik. Bu fəlsəfə vergi inzibatçılığında və vergi qanunvericiliyində mövcud olan vərdişlərdən şəffaf münasibətlərə, vergi müfəttişi ilə vergiödəyicisi arasında münasibətlərin təbiətinin dəyişməsinə, şəffaflaşmasına, müasirləşməsinə, müstəqil Azərbaycanın vətəndaş-dövlət münasibətlərinə uyğunlaşmasına keçməkdən ibarət olub.

2019-cu ilin ilkin nəticələrinə əsasən deyə bilərik ki, yanvarın 1-dən qüvvəyə minmiş yeni vergi dəyişiklikləri istədiyimiz nəticələri verməkdədir. İlin birinci rübündə də, 4 ayda da biz bu tendensiyanı qorumağa nail olmuşuq.

Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə daxilomalar proqnozlardan daha yüksək icra olunub. Belə ki, həm neft, həm də qeyri-neft sektorunda ödənilən vergilərin həcmi istər 2018-ci ilin eyni dövründən, istərsə də proqnoz göstəricilərdən daha yüksək olub. Birinci rübdə dövlət büdcəsinə vergi proqnozlarından 10,4 faiz çox vəsait təmin edilib. Ötən ilə nisbətən artım 16,5 faiz təşkil edir. Aprel ayında da bu dinamika qorunub saxlanılıb. Bu rəqəmlər, müvafiq olaraq, proqnoza nisbətən 111 faiz təşkil edir və ötən illə müqayisədə 18 faiz daha çoxdur.

Qısaca desək, biz islahatların ilkin nəticələrini müşahidə etməkdəyik. Sevindirici hal ondan ibarətdir ki, bu, vergiödəyiciləri ilə Vergilər Nazirliyi arasında münasibətlərdə və həmin münasibətlərin təbiətində də öz əksini tapır.

**- Vergi daxilolmaları üzrə gözləntilər artıqlaması ilə yerinə yetirilib. Bu, nəyin hesabına mümkün olub?**

- Burada bir neçə amil var. Birincisi, vurğulamalıyıq ki, ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar iqtisadi artımla nəticələnir. Belə ki, birinci rüb ərzində ümumi daxili məhsul (ÜDM) artıb. Doğrudur, vergi daxilolmalarının artım tempi ÜDM-in artım tempini bir neçə dəfə üstələyir. Eyni zamanda, ÜDM-in birinci rübdə real artımı 3 faizdən çox olub. Bu, müsbət fon yaradır.

İkinci mühüm məsələ, qeyd etdiyim kimi, vergiödəyiciləri ilə qurulmuş yeni münasibətlərdir. Bilirsiniz ki, 2018-ci ildən başlayaraq ümumilikdə səyyar vergi yoxlamalarının sayının azaldılmasına üstünlük verilir. Bu resurslar daha çox vergiödəyicisinin maariflənməsinə, ona xidmət göstərilməsinə yönəldilib. Nəticədə, könüllü vergi əməletməsi əhəmiyyətli dərəcədə artıb. Əgər ötən illərdə vergi daxilolmalarının böyük hissəsi səyyar vergi yoxlamaları nəticəsində baş verirdisə, bu il həmin dinamika əhəmiyyətli dərəcədə dəyişib. Lakin bu, o demək deyil ki, vergi orqanları vergi sahəsində olan qanun pozuntularına göz yumur və ya göz yummaq niyyətindədir. Tam əksinə. Biz yoxlamaların sayını azaltmaqla qanun pozuntularına görə məsuliyyətin artırılması yolu ilə gedirik. Buna da əsasımız var. 2019-cu ildən bir çox sahələrdə vergi yükü azaldılıb. Eyni zamanda, bütün sivil cəmiyyətlərdə qəbul olunduğu kimi, vergi öhdəliklərinin hər bir vergiödəyicisi tərəfindən tam həcmdə, istisnasız qarşılanması tələbi irəli sürülüb.

Nəhayət, üçüncüsü, vergi inzibatçılığının səmərəliliyinin artırılması məqsədilə bir çox sahələrdə və klasterlərdə sistemli tədbirlər həyata keçirilib. Nümunə olaraq aksizli malların klasterini, klinikaları, pərakəndə ticarət, ictimai iaşə sektorunu, daş, qum, çınqıl karxanalarını qeyd edə bilərəm. Əvvəllər bu və digər sahələrdə sistemli şəkildə rast gəlinən boşluqlara, bu klasterlərdə fəaliyyət göstərən əksər, bəlkə də bütün vergiödəyiciləri tərəfindən yol verilən eyni vergi pozuntularına bir çox hallarda göz yumulurdu. Beləliklə, vergi inzibatçılığının təkmilləşdirilməsi müsbət amillərdən biridir.

**- Biznesin fəaliyyətinin leqallaşdırılması buna nə dərəcədə təsir etdi?**

- Bu, ən vacib amillərdən biridir. Çünki həyata keçirilən vergi islahatlarının əsas məqsədi məhz "kölgə iqtisadiyyatı"nın azaldılmasından, "kölgə"də fəaliyyət göstərənlərin "kölgə"dən çıxmasından ibarət idi. Lakin vurğulamalıyıq ki, qeyd olunan problemin tam həlli və yaxud köklü həlli barədə bu gün danışmaq çox tezdir.

Biz işimizi vergiödəyicisi ilə münasibətin təbiətinin dəyişdirilməsi üzərində qururuq. Çünki istənilən dəyişiklik yalnız o halda dönməz olur ki, bu dəyişikliklərə "qol gücü", inzibati resurs hesabına deyil, münasibətin təbiətinin dəyişdirilməsi, şüurlu, təfəkkürlü qarşılıqlı münasibətin qurulması hesabına nail olunsun. Bu da təbii olaraq həm uzun, həm də bir çox hallarda çətin yoldur.

Bu ilin 4 ayında çalışmışıq ki, vergiödəyicisi özü biznesini leqallaşdırsın və "kölgə"dən çıxsın. Biz yenə də buna imkan verəcəyik. Azərbaycan Prezidentinin təşəbbüsü ilə Vergi Məcəlləsinə edilən dəyişikliklər paketinə belə bir yenilik əlavə olunub ki, əksər biznes sahələrində baş verən və "kölgə" mahiyyəti daşıyan pozuntular ilk dəfə aşkarlandıqda sahibkara maliyyə sanksiyası deyil, xəbərdarlıq edilir.

Fikrimcə, bu, açıq və aydın şəkildə dövlətin siyasətini əks etdirir. Yəni, burada məqsəd heç bir şəkildə cərimə və sanksiya ilə deyil, ilk növbədə, vergiödəyicisinə onun yol verdiyi pozuntunu göstərərək, şüurlu şəkildə aradan qaldırması üçün daha bir şans verməkdir. Amma bu baş vermədiyi təqdirdə, təbii ki, bütün məsələlər hüquqi çərçivədə həll edilməli və dövlətin qanunlarına riayət olunmalıdır. Dövlət orqanlarının və konkret olaraq Vergilər Nazirliyinin işi məhz bundan ibarətdir. Bunun üçün bizim həm səlahiyyətimiz, həm peşəkar bacarıqlarımız mövcuddur. Leqallaşma könüllü şəkildə baş vermədiyi halda, biz öz səlahiyyətlərimizdən istifadə edirik.

Ona görə də, sualınıza qısa cavab olaraq deyə bilərəm ki, hazırda biz leqallaşmanın səmərəsini qismən görürük. Lakin mən inanıram ki, biz bu səmərəni daha aydın şəkildə görəcəyik. Biz bir neçə sahədə bu prosesin daha surətlə getdiyini müşahidə edirik. Məsələn, pərakəndə və topdansatış ticarət, ictimai iaşə, qida məhsullarının satışı kimi sahələrdə vergi dövriyyələrinin artım templəri çox yüksək olub - bəzi hallarda 30 faiz, bəzi hallarda isə 50-55 faiz. Bu inanılmaz artım tempidir. Əslində, bu, bazarda olan "kölgə səviyyəsi"nin və həmin klasterlərdə fəaliyyət göstərən vergiödəyicilərinin hansı həddə "kölgə"də olmasının göstəricisidir. Qeyd etdiyim kimi, bu proseslər davam etdiriləcək.

**- Yeri gəlmişkən, 2019-cu ildən etibarən sığorta ayırmalarının toplanması prosesi Vergilər Nazirliyinə həvalə edilib. Bu gün üçün hansısa nəticələrdən danışmaq olar?**

- Yanvarın 1-dən bu yığımların inzibatçılığı Vergilər Nazirliyinə həvalə olunub. Mən fürsətdən istifadə edərək qeyd etmək istəyirəm ki, biz 2018-ci ilin sonundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindəki həmkarlarımızla bu proseslərdə yaxından çalışmışıq. Qısa müddət ərzində bu keçidi uğurla başa çatdıra bilmişik. Doğrudur, yanvar-fevral aylarında müəyyən çətinliklər yaranmışdı. Lakin bütün çətinliklər artıq aradan qaldırılıb. İnanıram ki, vergiödəyiciləri üçün daha rahat bir sistem yaradılıb. Çünki onlar müxtəlif dövlət qurumları ilə deyil, bir dövlət orqanı ilə ünsiyyətdə olurlar. Sığorta yığımları üzrə daxilolmaların artımı bu islahatın da səmərəliliyinə nail olunduğunu tam şəkildə əks etdirir.

**- Siz bir qədər əvvəl qeyd etdiniz ki, biznesdə sahibkarlarla münasibətlər həm qanun çərçivəsində, həm də Vergilər Nazirliyinin fəaliyyəti baxımından çox humanist və xoş məram nümayiş etdirilərək qurulur. Ümumiyyətlə, biznesdə münasibətlərin tənzimlənməsi və daha da yaxşılaşdırılması üçün gələcək planlar nədir və 2019-cu ildə nə gözləmək olar?**

- Mən humanizm məsələsinə xüsusi toxunmaq istəyirəm. Bilirsiniz ki, dövlət siyasətində humanizm var və bu, daim olacaq. Lakin biz hər zaman xatırlamalıyıq ki, humanizm qanuna və qaydaya riayət edən cəmiyyətlərin xüsusiyyətidir. Humanizm birtərəfli yol deyil. Dövlət tərəfindən real çətinlik, real obyektiv vəziyyət tanınaraq hansısa bir addım, güzəşt, borcun ödənilməsində kömək kimi birdəfəlik addımlar atılır. Lakin bundan sonra da güzəştlərin müqabilində vətəndaşdan, vergiödəyicisindən qanunlara tam riayət edilməsi gözlənilir.

Biz bu sahədə dəyişikliklərə özümüzdən başlamışıq. Vergilər Nazirliyinin işçilərinin mütləq əksəriyyəti layiqli dövlət qulluqçusu, öz peşə vəzifələrini bacarıqla və ləyaqətlə həyata keçirən insanlardır. Lakin son ilyarım ərzində bir çox işçilərlə yollarımızı ayırmışıq. Bu müddət ərzində Vergilər Nazirliyində çalışan 15 əməkdaşa münasibətdə yalnız əmək müqavilələrini dayandırmamışıq, həm də onların fəaliyyətinin müvafiq hüquq-mühafizə orqanları tərəfindən araşdırılması üçün aidiyyəti üzrə təqdimatlar vermişik. Çünki bu daxili təmizləmə prosesləri olmasa, bizim vergiödəyicisinə "qanuna riayət elə, qanunla yaşa, dünənki əyri yollardan əl çək" kimi mesajımız, məncə, inandırıcı olmaz və lazımi səmərəni verməz.

Gələcək addımlar baxımından qarşımızda duran strateji məqsədləri iki istiqamətə bölərdim. Birinci strateji istiqamət ondan ibarətdir ki, qanunvericilikdə edilmiş bir çox dəyişikliklər vergi inzibatçılığının daha da təkmilləşdirilməsini tələb edir. Ona görə bizim yerli vergi orqanlarımız öz fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun qurmalıdır.

Digər məsələ isə vergiödəyiciləri tərəfindən yeni reallığın qəbul edilməsidir. Yeni vergi çərçivəsi, qeyd etdiyim kimi, vergidən azad edilmə, vergi dərəcəsinin aşağı salınması kimi birtərəfli yol deyil, bunun müqabilində qanuna uyğun olaraq fəaliyyət göstərməkdir. Əgər sahibkar obyektiv çətinliklərlə rastlaşırsa, Vergilər Nazirliyi onun birinci ünvanıdır, ona müvafiq xidmət təqdim etmək bizim borcumuzdur. Lakin qanuna riayət etməyən, vergidən yayınma ilə məşğul olan vergiödəyiciləri üçün, təbii olaraq, qanunda nəzərdə tutulan bütün sanksiyalar tətbiq ediləcək.

Bu, davamlı bir işdir. Yenə də vurğulayıram, bu iş nə bir günə, nə bir aya başa çatmayacaq. Amma biz necə çətin bir yola çıxdığımızı bilirik. Tam əminliklə deyə bilərəm ki, bu yolu uğurla başa çatdırmaq üçün bizim nazirliyin həm peşəkarlığı, həm də güclü iradəsi mövcuddur. Biz bu yolda tək deyilik. Əksər vergiödəyiciləri məhz bu prinsiplə yaşamaq istəyir. Biz bütün hədəflərə birlikdə nail ola biləcəyik.

**- İstər sosial mediada, istər kütləvi informasiya vasitələrində, istərsə də şəhərin mərkəzi küçələrində Vergilər Nazirliyinin "Birlikdə kölgədən işığa doğru" adlı şüarına rast gəlmək olar. Burada əsas açar sözlər kölgə, işıq və birlikdir. Bu o deməkdirmi ki, Vergilər Nazirliyi özü də "kölgə"dən çıxmaq istəyir?**

- Hər hansı bir problemi həll etmək istəyiriksə, o problemi tanımalıyıq. Əgər biz həmin problemi düzgün müəyyən etmiriksə və tanımırıqsa, problemin həlli şansı sıfıra bərabərdir. Ona görə biz qəbul etməliyik ki, bir il yarım əvvələ qədər müşahidə etdiyimiz vəziyyətin formalaşmasında tək bir tərəfi günahlandırmaq haqsızlıq olardı. Burada vergiödəyicisi məsuliyyət daşıdığı kimi, vergi orqanı da məsuliyyət daşıyır. Bu məsələlər ətrafında kifayət qədər danışılıb və kütləvi informasiya vasitələrində də işıqlandırılıb. Qeyd etdiyim kimi, bu, daimi bir prosesdir və davam etdiriləcək. Biz məhz birlikdə işıqlı, aydın və şəffaf iqtisadi fəaliyyətlə, fiskal nizam-intizamla fəxr edəcəyik. Çünki bundan hər bir vətəndaş, bütövlükdə müstəqil Azərbaycan dövləti faydalanacaq. İqtisadiyyatı güclü, büdcə imkanları geniş olan dövlət və cəmiyyət bunu təhsilin keyfiyyətində də, yolların rahatlığında da, elektrik enerjisinin fasiləsiz təminatında da, qüdrətli orduda da, cəmiyyətin firavan və azad yaşamasında da görür. Biz də bu istiqamətdə üzərimizə düşən funksiyaları yerinə yetirməliyik.

# MÜASİR MÜSTƏQİL AZƏRBAYCAN ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İDEYALARI ƏSASINDA İNKİŞAF EDİR

*YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun işıq üzü görən "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", "Qurtuluşdan başlayan tərəqqi" və "Xalqla iqtidarın birliyi" adlı kitabları Heydər Əliyev irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir*




Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri əvəzsizdir. Ulu Öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb. Başqa sözlə, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Ən əsası, bu gün müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Ulu Öndərin əsasını qoyduğu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və çağırışlarına müvafiq olaraq uğurla davam etdirilir, Azərbaycan yeni zirvələr fəth edərək möhtəşəm və parlaq nailiyyətlər qazanır.

Heç şübhəsiz ki, Heydər Əliyev irsi gələcək nəsillər üçün də zəngin xəzinədir və onun öyrənilməsi müstəsna əhəmiyyətə malikdir. Bu günə qədər Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən bəhs edən çoxsaylı fundamental tədqiqat əsərləri, qiymətli kitablar, dəyərli monoqrafiyalar yazılıb və bütün bunlar böyük dövlət xadiminin, dahi siyasətçinin zəngin siyasi irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından xüsusi önəm kəsb edir. Yeri gəlmişkən, Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", "Qurtuluşdan başlayan tərəqqi" və "Xalqla iqtidarın birliyi" adlı kitabları işıq üzü görüb. Hər 3 kitab Heydər Əliyev irsinin öyrənilməsinə, Ümummilli Liderin ideyaları əsasında inkişaf edən müasir müstəqil Azərbaycanın keçdiyi zəngin və şərəfli tərəqqi yoluna nəzər salmağa imkan verir.

## "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ"

Nəfis tərtibatda hazırlanan, elmi redaktorunun Azərbaycan Respublikasının Baş nazirinin müavini, YAP Sədrinin müavini - İcra katibi, professor Əli Əhmədov olduğu "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" adlı kitabda müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin ölkədə siyasi sistemin və tolerantlığın təşəkkül tapmasında, Azərbaycanın Avropaya inteqrasiya olunmasında və iqtisadi baxımdan dirçəlməsində, siyasi plüralizm və demokratiyanın inkişafında rolundan bəhs edən məqalələr toplanıb.

"Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" adlı kitabın ön sözü Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli tərəfindən "Siyasi baxışla əməli addımların ifadəsi" başlığı altında yazılıb. Kitabda YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun müxtəlif vaxtlarda dərc olunmuş "Ümummilli Lider Heydər Əliyev və müstəqillik ideyası", "Heydər Əliyev və müstəqilliyin əsaslarının yaradılması", "Heydər Əliyev və Azərbaycan Konstitusiyası", "Heydər Əliyev və Azərbaycan Konstitusiyasında insan hüquqları", "Heydər Əliyev və Azərbaycanın siyasi sistemi", "Heydər Əliyevin siyasi irsində partiya quruculuğu məsələləri", "Heydər Əliyev Azərbaycanın müasir hüquq sisteminin banisidir", "Heydər Əliyev və demokratik seçkilər", "Heydər Əliyev Şərq-Qərb dəhlizinin yaradıcısıdır", "Cənubi Qafqazın Avrasiyaya inteqrasiyasında Heydər Əliyev siyasəti", "Azərbaycan Avroatlantik məkanda", "Azərbaycanın qloballaşan dünyada mövqelərinin möhkəmlənməsi", "Uğurlu inkişaf strategiyası", "Azərbaycanda multikulturalizmin tarixi-ictimai ənənələri", "Azərbaycan multikulturalizmin və islam həmrəyliyinin mərkəzi kimi" adlı məqalələri yer alıb.

Heydər Əliyev irsinin dərindən tədqiqi üçün mötəbər elmi mənbə olan kitabda Azərbaycanın zəngin dövlətçilik tarixində müstəsna yerə malik olan Ulu Öndərin xalqımız qarşısında əvəzsiz xidmətlərindən bəhs edilib. Xalqımızın gələcək taleyinin müəyyənləşdirilməsi baxımından Heydər Əliyev epoxasının bənzərsiz olduğunun vurğulandığı kitabda diqqətə çatdırılıb ki, əsl vətəndaş, tarixi şəxsiyyət və Ümummilli Lider kimi Heydər Əliyev millətini, torpağını fəlakətdən qurtarıb, onu çevriliş, qiyam cəhdlərindən hifz edərək dirçəliş və inkişafa doğru yönəldib, cəmiyyətdə özünəinam hissini bərpa edib, ölkəmizdə sabitlik və firavanlığa təminat yaradıb.

"Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" adlı kitabda həmçinin ölkəmizdə müasir hüquqi və siyasi sistemin yaradılmasında Ulu Öndərin misilsiz xidmətlərindən bəhs olunub. Kitabda əksini tapan məsələlərdən biri də Azərbaycan dövlətinin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyevin uğurlu dövlət quruculuğu prosesinin əsasını qoymasıdır. Bunun Azərbaycanın müasir müstəqil dövlət kimi inkişafı baxımından çox mühüm əhəmiyyətə malik olduğu bildirilib. Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı və səmərəli siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda, milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması da xüsusi vurğulanıb. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin fonunda ölkənin siyasi-hüquqi sistemində müsbət mənada əsaslı dəyişikliklərin olması, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması, vətəndaş cəmiyyətinin bərqərar edilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, müasir dövlətçilik sisteminin bərqərar edilməsi kimi məsələlər də oxucuların diqqətinə çatdırılıb.

YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" adlı kitabında Heydər Əliyevin siyasi irsində partiya quruculuğu məsələsi də geniş şəkildə öz əksini tapıb. Xüsusilə də, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının yaranması və fəaliyyətinə xüsusi nəzər salınıb. Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli dövlətçiliyimizin əsaslarının gücləndirilməsində, inkişafa, sabitliyə, tərəqqiyə xidmət edən milli məqsədlərin reallaşdırılmasında və yeni hədəflərin müəyyənləşdirilməsində misilsiz xidmətlər göstərdiyinin vurğulandığı kitabda YAP-ın bu cür ali məramlı fəaliyyəti ilə ümumxalq partiyasına çevrildiyi bildirilib.

Azərbaycanın Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında inkişaf etdiyinin, ölkəmizin ötən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm inkişaf yolu keçdiyinin, bütün sahələrdə mühüm nailiyyətlərin əldə edildiyinin vurğulandığı kitabda həmçinin diqqətə çatdırılıb ki, ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini təmin edib. **"Ulu Öndərimizin möhkəm təməllər üzərində həyata keçirdiyi müstəqil dövlət quruculuğu Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə çox uğurla davam etdirilir. Müstəqil dövlət quruculuğunun əsas amillərindən biri dövlətin iqtisadi qüdrətinin artırılması, əhalinin sosial rifah halının yaxşılaşdırılmasıdır. Dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığı fərmanlar, Onun Sərəncamı ilə təsdiq olunmuş regional inkişafa dair Dövlət Proqramı ölkəmizin hərtərəfli inkişafına güclü təkan verib. Təsadüfi deyil ki, 2003-cü il prezident seçkilərindən sonra iqtisadi siyasətin yeni prioritetləri, inkişaf perspektivləri müəyyənləşdirilmişdir. Bu istiqamətdə konsepsiya işlənib hazırlanmış, konkret Dövlət proqramları qəbul olunmuşdur. Uğurlarımız isə göz qabağındadır",** - deyə kitabda vurğulanıb. Bildirilib ki, Prezident İlham Əliyevin ötən illər ərzində gördüyü işlər və hazırkı fəaliyyəti deməyə əsas verir ki, O, Heydər Əliyevin parlaq ideyalarının, sadəcə, davamçısı yox, eyni zamanda, bu ideyaları XXI əsrin tələblərinə, dövrün, zamanın ruhuna uyğun olaraq təkmilləşdirməyə və inkişaf etdirməyə qadir olan bir liderdir.

## "QURTULUŞDAN BAŞLAYAN TƏRƏQQİ"

Nəfis tərtibatda çap olunan, redaktorunun Azərbaycan Respublikasının Milli Məclisinin sədrinin birinci müavini, professor Ziyafət Əsgərov olduğu "Qurtuluşdan başlayan tərəqqi" adlı kitabda isə Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən, Azərbaycanın siyasi palitrasında milli siyasi iradəni təmsil edən, ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının keçdiyi zəngin və şərəfli inkişaf yolundan, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətdən bəhs edən müsahibələr toplanıb. Kitabın ön sözü Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov tərəfindən "Qurtuluşdan başlayan tərəqqinin təntənəsi" başlığı altında yazılıb. Siyavuş Novruzovun "Qurtuluşdan başlayan tərəqqi" adlı kitabındakı müsahibələr dörd bölmədə təqdim edilib. Birinci bölmədə müsahibələr "Ümummilli Lider Heydər Əliyevin ideyaları yaşayır" başlığı altında toplanıb.

"Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu Azərbaycançılıq ideologiyası özündə multikultural dəyərləri də birləşdirir" adlı birinci müsahibədə müasir dövrdə sivilizasiyalararası dialoqun, multikulturalizm dəyərləri və tolerantlıq ənənələrinin təbliği və təşviqinin əhəmiyyətindən, bu sahədə Azərbaycanın mütərəqqi təcrübəsindən bəhs edilib. Qeyd edilib ki, dövrümüzün mühüm çağırışlarından olan multikultralizmin Azərbaycanda tarixən formalaşmış zəngin ənənələri və möhkəm ictimai dayaqları mövcuddur. Qarşıda duran vəzifə bu hərtərəfli potensialı Azərbaycan dövlətçiliyinin inkişaf və tərəqqisinin vacib elementinə çevirmək, sahib olduğumuz təcrübəni regional və qlobal məkanda uğurla paylaşmaqdır. Müsahibədə həmçinin Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu Azərbaycançılıq ideologiyasının əhəmiyyətindən danışılıb, dövlətçilik maraqlarına xidmət edən bu ideologiyanın özündə multikultural dəyərləri də birləşdirdiyi diqqətə çatdırılıb.

"Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir" adlı ikinci müsahibədə isə Ulu Öndər Heydər Əliyevin xalqımızın çoxəsrlik dövlətçilik tarixində müstəsna yeri və rolundan geniş bəhs edilib. Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin bütün dövrlərinə nəzər yetirilən müsahibədə Ulu Öndərin zəngin siyasi və dövlətçilik irsinin öyrənilməsinin, gələcək nəsillərə çatdırılmasının əhəmiyyəti diqqətə təqdim edilib. Vurğulanıb ki, zəmanəmizin ən dahi şəxsiyyətlərindən biri, xalqımızın böyük oğlu Heydər Əliyevə məhz Öz millətinin qəlbində və onun çoxəsrlik tarixində müqəddəslik zirvəsinə yüksəlmək səadəti nəsib olub. Heydər Əliyev kimi xalqına hədsiz bağlı olan şəxsiyyətlərin ömrü onun yaşadığı illərlə ölçülmür. Öz millətinin taleyini yaşamış Heydər Əliyev indi də, gələcəkdə də qədirbilən xalqımızın qəlbində yaşayır və daim yaşayacaqdır.

"Qurtuluşdan başlayan tərəqqi və yüksəliş sonrakı dövrdə Azərbaycanın müstəqil dövlət kimi sürətli inkişafını təmin etdi" adlı üçüncü müsahibədə isə 15 İyun - Milli Qurtuluş Gününün dövlətçilik tariximizdəki rolundan, əhəmiyyətindən geniş söz açılıb, Azərbaycanı xaos və tənəzzüldən xilas edən Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərin sabitlik və inkişaf dövrü kimi başlıca səciyyəvi xüsusiyyətləri diqqətə çatdırılıb. Vurğulanıb ki, 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi, ölkədə davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu: **"Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub saxlamaq idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Ulu Öndər Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı qürur səhifəsini təşkil edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir".**

"Ulu Öndər Heydər Əliyev ölkəmizi Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamaq təhlükəsindən xilas etdi" adlı müsahibədə isə Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna nəzər yetirilib, Cümhuriyyət parlamentinin fəaliyyətinin, ümumiyyətlə, həmin dövrdə qəbul edilmiş qanun və qərarların önəmi diqqətə çatdırılıb. Xalq Cümhuriyyətinin varisi olan müstəqil Azərbaycan Respublikasının keçdiyi inkişaf yolu siyasi təhlil predmetinə çevrilib. Qeyd edilib ki, bu gün Azərbaycan postsovet məkanında inkişaf dinamikasına görə ön sırada yer alan ölkələrdəndir ki, bunun da əsasında Ümummilli Liderin təməlini qoyduğu inkişaf siyasəti dayanır.

İkinci bölmədə isə müsahibələr "Möhkəm təmələ əsaslanan siyasətin təntənəsi" başlığı altında toplanıb. Burada "Yeni hədəflər ölkənin davamlı inkişaf strategiyasının mahiyyətindən qaynaqlanır", "Xalq Azərbaycanda inkişaf və sabitliyin davamlı olması üçün cənab İlham Əliyevi dəstəkləyir", "Azərbaycan reallıqları: möhkəm təmələ əsaslanan siyasətin təntənəsi", "Azərbaycan reallıqlarının Davos Dünya İqtisadi Forumu kimi mötəbər tribunadan səsləndirilməsi müstəsna əhəmiyyətə malikdir", "Qazanılan uğurların əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, məqsədyönlü siyasət dayanır", "2017-ci ilin Prezident İlham Əliyev tərəfindən "İslam həmrəyliyi ili" elan olunması vaxtında qəbul olunmuş və zamanın çağırışlarına cavab verən addımdır", "Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, məqsədyönlü siyasət iqtisadi uğurların əsasıdır" adlı müsahibələr yer alıb. Bu bölmədə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli daxili və xarici siyasətin uğurlu nəticələrindən, Azərbaycanın beynəlxalq münasibətlər sistemində uğurla təmsil olunaraq mühüm nailiyyətlər əldə etməsindən, ölkəmizin beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığa xidmət edən mühüm qlobal təşəbbüslərindən, o cümlədən 2017-ci ilin dövlətimizin başçısı tərəfindən "İslam həmrəyliyi ili" elan olunmasının əhəmiyyətindən bəhs edilib, mühüm analitik qənaətlər diqqətə çatdırılıb.

"Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" başlığı altında toplanmış müsahibələrdə isə ümumxalq və qələbələr partiyası olan YAP-ın yaranmasından, ölkənin siyasi həyatında uğurlu iştirakından, səmərəli beynəlxalq əlaqələrindən, xalqımızın Yeni Azərbaycan Partiyasına seçkilərdə yüksək etimad və dəstəyinin əsasında duran amillərdən söhbət açılıb. Vurğulanıb ki, zəngin və şərəfli inkişaf yoluna malik olan Yeni Azərbaycan Partiyasının ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər əldə etməsi təsadüfi xarakter daşımır. **"Hər şeydən əvvəl, Yeni Azərbaycan Partiyası milli maraqlara xidmət edən çoxşaxəli və səmərəli fəaliyyəti ilə Azərbaycan cəmiyyətinin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirib. Monolit və avanqard siyasi qüvvə kimi Azərbaycanın dinamik inkişafına öz layiqli-dəyərli töhfələrini verən Yeni Azərbaycan Partiyasının ümumxalq partiyası olmasını göstərən ən mühüm amillərdən biri onun öz sıralarında dilindən, dinindən, etnik mənşəyindən asılı olmayaraq bütün insanları birləşdirməsidir. Bu, partiyamızın yüksək nüfuzunu əks etdirən başlıca göstəricilərdəndir",** - deyə diqqətə çatdırılıb. Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası güclü liderin ətrafında yaranmış partiyadır: **"Partiyanın yarandığı dövrə nəzər salanda görürük ki, zəngin dövlətçilik və idarəetmə təcrübəsinə malik olan, ömrünü və bütün fəaliyyətini Öz xalqına və dövlətinə xidmətə həsr edən bir şəxsiyyətin - Ümummilli Lider Heydər Əliyevin Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi partiyamıza olan inam, etimad və dəstəyi artırırdı. YAP-ın fəaliyyəti Heydər Əliyev siyasi xətti olaraq qəbul edilirdi. Bu səbəbdən YAP qısa müddət ərzində ümumxalq partiyasına çevrildi, Azərbaycanın tərəqqisinə xidmət edən fəaliyyətini uğurla davam etdirərək ölkəmizin möhtəşəm nailiyyətlər əldə etməsinə fundamental töhfələr verdi. Bu gün də partiyamiz öz fəaliyyətini Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında davam etdirir. Başqa sözlə, Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin Sədrliyi ilə öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir, qatıldığı bütün seçkilərdə parlaq qələbələr qazanır. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Ümummilli Liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır".**

"Konstitusiya islahatları müasir dövrün tələbidir" başlığı altında toplanmış müsahibələrdə konstitusiya islahatlarının milli qanunvericilik bazasının zənginləşdirilməsi, idarəetmədə çeviklik və effektivliyin artırılması və digər istiqamətlər üzrə əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, Konstitusiya islahatlarının tətbiqi ilə Azərbaycanın müasir inkişaf tarixinin yeni səhifəsi yazılır. Bununla yanaşı, bəhs olunan bölmədə Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin uğurlu nəticələrindən, dostluq, qardaşlıq və strateji tərəfdaşlığa söykənən Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə müvəffəqiyyətlə inkişaf etməsindən, əlaqələrin bu gün ən yüksək zirvədə olmasından söhbət açılıb.

## "XALQLA İQTİDARIN BİRLİYİ"

YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun "Xalqla iqtidarın birliyi" adlı kitabında isə müasir Azərbaycanın siyasi, ictimai, sosial, iqtisadi həyatı ilə bağlı müxtəlif xəbər agentliklərinə verilmiş 160-a yaxın müsahibə toplanıb. Həmin müsahibələr "Humanizm Heydər Əliyev siyasətinin əsasıdır", "Müasir Azərbaycan Heydər Əliyevin şah əseridir", "Yeni Azərbaycan Partiyasının təməli möhkəm və əzəmətlidir", "Qanun hər şeydən üstündür", "Azərbaycan heç bir dövlətə kiçik qardaşlıq etmək fikrində deyil", "Azərbaycan Cənubi Qafqazda ən güclü orduya malikdir", "Azərbaycan dünyaya nümunədir", "İqtisadiyyatımız uğurla inkişaf edir", "Sosial sahədə uğurlar təqdirəlayiqdir", "Azərbaycanda müxalifət qocalıb" adlı 10 bölmədə təqdim olunub. Elmi redaktorunun Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini, tarix üzrə fəlsəfə doktoru Mübariz Qurbanlı olduğu kitabın ön sözü "Xalqla iqtidarın birliyi sabitliyin qarantıdır" başlığı altında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü, iqtisadi elmlər doktoru, professor Eldar İbrahimov tərəfindən yazılıb.

Sözügedən kitabda yer alan müsahibələrdə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf siyasəti nəticəsində Azərbaycanın müstəqil dövlət kimi tərəqqi yolunda inamla irəliləməsindən, beynəlxalq münasibətlər sistemində uğurla təmsil olunmasından geniş bəhs edilib. "Xalqla iqtidar birliyi" adlı kitabda həmçinin Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin bütün sahələrdə inkişafa və yüksəlişə səbəb olduğu diqqətə çatdırılıb, siyasi, hüquqi, sosial, iqtisadi, mədəni və digər istiqamətlərdə reallaşdırılan məqsədyönlü və kompleks islahatların səmərəli nəticələrinin Azərbaycanın qüdrətinin daha da artmasına xidmət etdiyi vurğulanıb. YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun "Xalqla iqtidarın birliyi" adlı kitabında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyətindən də söhbət açılıb. Bildirilib ki, Azərbaycan qadınının müdriklik, ləyaqət və nəciblik kimi ən ali xüsusiyyətlərinin daşıyıcısı olan Mehriban xanım Əliyeva Prezident İlham Əliyevə bir nömrəli dayaqdır. O da vurğulanıb ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ümummilli Liderimizin siyasi xəttinə sadiq qalaraq humanist addımlarını davam etdirir.

Yeni Azərbaycan Partiyasının təməlinin möhkəm və əzəmətli olduğunun vurğulandığı kitabda nəzərə çatdırılıb ki, bu gün ölkəmizin ən güclü, ən mütəşəkkil, ən monolit siyasi qüvvəsi olan YAP Azərbaycan xalqına uzun illər xidmət göstərəcək və yeni-yeni nailiyyətlərə imza atacaq. Bundan başqa, kitabda Azərbaycanın milli maraqlara əsaslanan, çoxvektorlu və praqmatik xarici siyasətindən, ikitərəfli və çoxtərəfli münasibətlərini, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrini uğurla davam etdirməsindən bəhs edilib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın qətiyyətli - prinsipial mövqeyi və hücum diplomatiyası, ordu quruculuğu istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər diqqətə təqdim olunub. Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatların əhəmiyyəti və nəticələri də kitabda öz əksini tapıb. Azərbaycan xalqının Prezident İlham Əliyevin ətrafında sıx birləşdiyi, ölkəmizdə möhkəm ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyinin mövcud olduğu vurğulanıb. Bundan başqa, kitabda anti-Azərbaycan dairələrin və onların direktivləri əsasında hərəkət edən radikal müxalifətin ölkəmizə qarşı "qara piar" kampaniyası apardıqları, Azərbaycanda sabitliyin pozulmasının tərəfdarı olduqları vurğulanıb, müxtəlif faktlar və məqamlar nəzərə çatdırılıb. Müəllif vurğulayıb ki, Azərbaycanda xalq-iqtidar birliyinin qarşısını heç kim ala bilməyəcək.

Bütövlükdə, YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", "Qurtuluşdan başlayan tərəqqi" və "Xalqla iqtidarın birliyi" adlı kitabları ölkəmizin müstəqillik illərində keçdiyi şərəfli və çoxsaylı nailiyyətlərlə zəngin olan tərəqqi yolunun, Azərbaycanın dövlətçilik tarixində Heydər Əliyev şəxsiyyətinin müstəsna yerinin və rolunun, Ümummilli Liderin xalqımız qarşısında tarixi əhəmiyyətə malik olan əvəzsiz xidmətlərinin, Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara və müasir qlobal çağırışlara uyğun həyata keçirilən inkişaf siyasətinin əsaslarının öyrənilməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Qeyd edək ki, filologiya üzrə elmlər doktoru, professor Məmmədəli Qıpçaq "Elm və Təhsil" nəşriyyatında çap olunan hər 3 kitabın redaktorlarındandır.

**Nurlan QƏLƏNDƏRLİ**

# Ümummilli Lider Heydər Əliyevin xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanmasında tarixi xidmətləri əvəzsizdir



*Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı www.yap.org.az saytına müsahibə verib:*

**- Mübariz müəllim, mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycanın memarı və qurucusu, böyük dövlət xadimi Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü tamam olur. Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın zəngin dövlətçilik tarixində yeri və rolu, Ulu Öndərin xalqımız qarşısındakı misilsiz xidmətləri barədə nə deyə bilərsiniz?**

- Xalqların və dövlətlərin tarixi inkişaf yoluna müxtəlif hadisələr və proseslərin fonunda nəzər saldıqda lider amilinin həlledici rola malik olduğu aydın görünür. Daha dəqiq desək, ölkəsinin sahib olduğu resurslar və mexanizmləri milli məqsədlərə yönəldən, xalqı arxasınca aparan, dövlətinin tarixin siyasi səhnəsində özünəməxsus yer tutmasını təmin edən liderlər həm tarixi şəxsiyyətlər, həm də tarix yaradan şəxsiyyətlər kimi yaddaşlara əbədi həkk olunurlar. Şübhəsiz ki, hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə bütün dövrlərdə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman tarixi şəxsiyyətləri ilə fəxr etmişdir. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük xidmətlər göstərmiş Ümummilli Lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyət və böyük dövlət xadimidir. Ulu Öndər Heydər Əliyev tarixi prosesə təsir göstərməyə qadir şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün misilsiz işlər görmüşdür. Əminliklə söyləmək olar ki, Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Ulu Öndərin milli və dövlətçilik maraqlarına xidmət edən zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqı bundan sonra da bu böyük məktəbdən, Ümummilli Liderin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq, Azərbaycan Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda əmin addımlarla irəliləyərək yeni zirvələr fəth edəcək. Yəni əminliklə söyləmək olar ki, Heydər Əliyev irsi gələcək nəsillər üçün də zəngin xəzinə olacaq.

Ulu Öndər Heydər Əliyev o şəxsiyyətlərdəndir ki, O, özü bir tarix, salnamə yaratmış, zamanın axarını nizamlamaq qüdrətinə sahib olmuşdur. Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunub saxlanması, inkişafı, ölkəmizdə sabitlik və həmrəyliyin təmin olunması bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin Öz xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etməkdədir. Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil dövlət qurmaq idi. Ümummilli Liderimiz Azərbaycanı özünə güvənən qüdrətli bir ölkəyə çevirmək istəyirdi. Bu yolda qəti addımlar atır, əməli işlər görür, Azərbaycanın etibarlı, sağlam gələcəyini qururdu. Xalq Onu sevir, parlaq zəkasını qiymətləndirir və öz liderinə, Onun yeritdiyi siyasi kursa inanaraq ardınca gedirdi. Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində gedən proseslərdə Heydər Əliyev tarixi şəxsiyyət, lider olaraq Azərbaycan xalqının taleyinə təsir göstərən əhəmiyyətli addımlar atdı. 1993-cü ilin yayında Azərbaycan olduqca mürəkkəb şəraitdə olduğu zaman xalqın təkidlə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasını tələb etməsi heç də təsadüfi deyildi.

Həmin il iyunun 15-də müdrik siyasətçinin, təcrübəli dövlət xadiminin hakimiyyətə tarixi qayıdışı ilə Azərbaycan tarixinin yeni, əzəmətli mərhələsinə qədəm qoydu. Bu qayıdış ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara uyğun şəkildə müstəqil dövlət quruculuğu prosesi başlandı. Ulu Öndər Heydər Əliyev tarixə müasir müstəqil Azərbaycanın memarı olaraq düşdü. Ümummilli Liderin hakimiyyətə gəlişi ölkəmizi yalnız iqtisadi cəhətdən irəli aparmadı, eyni zamanda, Azərbaycan xalqının mənəvi aləmində, psixoloji durumunda, milli şüurunda böyük təkamülün, dəyişikliyin yaranmasına gətirib çıxardı. Yəni Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin iqtisadi, siyasi, sosial, mənəvi, psixoloji, ideoloji əhəmiyyəti var idi. Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində respublikamız hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoydu. Heydər Əliyev Özünün gərgin əməyi, uğurlu daxili və xarici siyasət strategiyası ilə ölkəmizin iqtisadi inkişafının, daxili siyasi sabitliyin və əmin-amanlığın, milli-mənəvi dəyərlərə qayıdışın, bu dəyərlərin qorunması və təbliğ edilməsinin rəhninə çevrildi. Biz Ümummilli Liderin müstəqillik dövründə, yəni 1993-2003-cü illərdə Azərbaycana rəhbərliyi dönəmində ölkəmizin keçdiyi inkişaf yoluna, qazanılan nailiyyətlərə nəzər saldıqda görürük ki, Azərbaycan, sözün əsl mənasında, sabitlik adası kimi çox mühüm zirvələr fəth edib, beynəlxalq münasibətlər sistemində söz və nüfuz sahibinə çevrilib. Bütün bunların nəticəsidir ki, müstəqil Azərbaycan 1993-cü ildən bu günə qədər inkişaf yolunda inamla irəliləyir, qazanılan möhtəşəm uğurlar ölkəmizin qüdrətinin daha da artmasını təmin edir.

**- Yeri gəlmişkən, Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunması və təbliği, eyni zamanda, ölkəmizdə din-dövlət münasibətlərinin tənizimlənməsi istiqamətində həyata keçirdiyi işlərin əhəmiyyəti nədən ibarətdir?**

- Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın özünəməxsus dövlət-din münasibətləri modelinin formalaşdırılmasında, eləcə də milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında xidmətləri əvəzsizdir. Daha dəqiq desək, Ulu Öndər Heydər Əliyev milli və dini dəyərlərimizin qorunmasında, İslam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində, eləcə də ölkədə vicdan azadlığının bərqərar edilməsində, tolerant və multikultural ənənələrimizin təbliğində və təşviqində əməli fəaliyyəti ilə misilsiz rol oynayıb. **"Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik",** - deyən Ulu Öndər xalqda milli heysiyyəti gücləndirmək, habelə zəngin irsimizi, mədəniyyətimizi, incəsənətimizi, adət-ənənələrimizi yaşatmaq, ana dilimizi inkişaf etdirmək üçün çox mühüm tədbirlər həyata keçirib. Qeyd etdiyimiz kimi, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə gənc dövlətin siyasi və iqtisadi əsasları yaradıldı, eyni zamanda, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideya - azərbaycançılıq ideologiyası təşəkkül tapdı. Məhz Ulu Öndərin həyata keçirdiyi milli siyasətin sayəsində xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı, milli-mənəvi dəyərlərə münasibət əsaslı dərəcədə dəyişdi, bu dəyişikliyin fonunda ölkədə etiqad, inanc azadlığı bərqərar oldu. Vətəndaşların vicdan azadlığı Heydər Əliyevin müəllifi olduğu Konstitusiyamızın 48-ci maddəsində öz əksini tapdı.

Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, beynəlxalq standartlara cavab verən dövlət-din münasibətləri, tolerantlıq prinsipləri ölkəmizdə məhz Heydər Əliyevin xidmətləri sayəsində bərqərar olub. Ulu Öndərin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan Respublikasında insan hüquqlarının qorunmasına dair qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb, dövlət-din münasibətlərinin tənzimlənməsi prinsipləri təsbit olunub, dini etiqad azadlığı ilə bağlı normativ hüquqi aktlara riayət edilməsinə nəzarət gücləndirilib, konfessiyalar arasında dözümlülük mühiti yaxşılaşdırılıb, eləcə də dini-tarixi abidələrimizin tikintisi, bərpası və qorunması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə başlanılıb. Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra ölkədə iqtisadi çətinliklərin mövcud olmasına baxmayaraq, Bibiheybət, Təzə Pir məscidlərinin təmir və bərpasına xüsusi diqqət göstərdi. Bununla yanaşı, Ulu Öndər 2001-ci il iyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə Fərman imzaladı və Dövlət Komitəsinin qarşısına Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların dövlət qeydiyyatına alınması, zərərli təriqətlərin fəaliyyətinə son qoyulması və digər vəzifələr qoydu. Bu, dövlət-din münasibətlərinin tənzimlənməsi baxımından olduqca mühüm əhəmiyyətə malik idi. Bir sözlə, Azərbaycanda dövlət-din münasibətlərinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub.

**- Mübariz müəllim, Siz Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyasına toxundunuz. Milli həmrəylik və bütövlüyü təmin edən universal ideoloji formul olan azərbaycançılığın tolerant və multikultural dəyərlərin qorunub saxlanmasında rolunu necə xarakterizə etmək olar?**

- Əvvəla qeyd edim ki, azərbaycançılıq məfkurəsi cəmiyyətdə sabitlik, əmin-amanlığı təmin edərək dövlətçiliyin stabil əsaslar üzərində tərəqqisinə geniş üfüqlər açmaqla yanaşı, öz humanist və bəşəri mahiyyəti ilə fərqlənir. Burada həm də ayrı-ayrı din, dil və mədəniyyət daşıyıcılarına nəinki toxunulmazlıq hüququ verilir, hətta azlıq və çoxluq təşkil etməsindən asılı olmayaraq bərabər miqyasda hörmət, ehtiram göstərilir. Bu gün Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq məfkurəsi multikultural münasibətlərin hakim olduğu Azərbaycan cəmiyyətində və ictimai-siyasi münasibətlərin qeyri-müəyyənliyi ilə diqqəti cəlb edən beynəlxalq aləmdə öz orijinallığı ilə seçilir. Hər iki məfhum bir-biri ilə üzvi vəhdət təşkil edən ideologiya və həyat norması kimi ölkədaxili ictimai-siyasi və sosial-mədəni münasibətlərin tənzimləyicisi, hərəkətverici qüvvəsi qismində çıxış edir, Qərblə Şərqin qovşağında qərar tutmuş Azərbaycanın altruist düşüncədən qaynaqlanan, bəşəri dəyərlərə ciddi önəm verən, mənəviyyatı və humanist prinsipləri bütün maraqların fövqündə saxlayan mövqeyində öz aydın ifadəsini tapmışdır.

Günümüzdə etnokonfessional zənginliyi özündə yaşadan və birləşdirən ideoloji baxışlar sistemi kimi azərbaycançılıq məfkurəsi müstəqil Azərbaycan dövlətinin ana xəttini təşkil edir. Təsadüfi deyil ki, Ulu Öndər siyasi hakimiyyətə qayıdışının ilk günündə etdiyi çıxışda azərbaycançılığı dövlət idarəçiliyi fəlsəfəsində əsas tezis kimi irəli sürmüşdür: **"Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bu məfhumları rəhbər tuta bilsək və bunu əməli surətdə həyata keçirə bilsək, biz Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik. Bu bizim əsas vəzifələrimizdən biridir".**

Azərbaycançılıq milli ideologiyanın əsası kimi müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi surətdə birliyini təcəssüm etdirir. O, milli maraqları ifadə edən güclü dövlət hakimiyyətinə və yüksək milli intizama, formalaşan milli özünüdərkə əsaslanır, ən müxtəlif sosial təbəqələrdə anlaşma axtarır, millətin və dövlətin öz potensialından irəli gələn daimi islahatçılığı təbliğ edir. Bu gün azərbaycançılıq milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millət və etnik qrupların qardaşlığının, qarşılıqlı əlaqə və qarşılıqlı təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizələrinin tarixi təcrübəsidir. Beləliklə, azərbaycançılıq ideologiyası etnik yox, siyasi və vətəndaşlıq xarakteri daşıyır, yalnız müstəqil Azərbaycanın vətəndaşlarına münasibətdə deyil, Azərbaycanın müstəqil dövlətçilik ideyasını üstün tutanlara münasibətdə də birləşdirici funksiyasını yerinə yetirir. Bir sözlə, azərbaycançılıq ideologiyası ilə multikulturalizm ideyası bir-birini tamamlayır.

**- Xalqımızın zəngin milli-mənəvi dəyərlərinin qorunması istiqamətində Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Eyni zamanda, Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri və tolerantlıq nümunəsi kimi tanınır, ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Bu barədə fikirlərinizi bildirməyinizi xahiş edirik.**

- Bu gün müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Yəni Heydər Əliyev siyasəti bu gün də Azərbaycanın hərtərəfli inkişafına xidmət etməkdədir. Dövlətimizin hazırkı parlaq və möhtəşəm nailiyyətlərinin əsasını Ümummilli Liderin ideyaları təşkil edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara və müasir qlobal çağırışlara uyğun həyata keçirilən uğurlu siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycan dünyada güclü, nüfuzlu dövlət, sabitlik adası və dinamik inkişafa malik olan ölkə kimi tanınır, qazanılan möhtəşəm nailiyyətlər ölkəmiz qarşısında yeni perspektivlər açır. Yüksək beynəlxalq nüfuza, müsbət reputasiyaya malik olan Azərbaycan təkcə iqtisadi inkişaf modeli ilə deyil, həm də özündə milli və ümumbəşəri dəyərləri ehtiva edən zəngin mədəniyyəti ilə diqqəti cəlb edir, dünyada multikulturalizmin ünvanlarından biri, tolerantlıq örnəyi kimi tanınır. Başqa sözlə, Azərbaycan dünyaya milli inkişaf modeli ilə yanaşı, tolerantlıq və multikulturalizmin təşviqi, təbliği istiqamətində mütərəqqi nümunə təqdim edib.

Son illər bütün dünyada dini-milli, sosial-iqtisadi zəmində baş verən münaqişələrin, vətəndaş müharibələrinin fonunda ölkəmizdə müşahidə olunan sabitlik həm də onun sübutudur ki, Azərbaycan bir çox ölkələrin sahib olmaq istədiyi, ancaq əldə etməkdə çətinliklər çəkdiyi, uğursuzluqlar yaşadığı ali dəyərlərin - tolerant və multikultural ənənələrin beşiyidir, bu sahədə onun öz təcrübəsi, bu təcrübəni qoruyub saxlayan, gələcək nəsillərə ötürən dövlət-din modeli var. O model ki, dünyada tədqiq edilir, öyrənilir və tətbiqinin əhəmiyyəti hər kürsüdə qətiyyətlə vurğulanır. Ümumiyyətlə, əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Biz bu gün də bu reallığın şahidi oluruq. Şamaxı şəhərində yerləşən, 743-cü ildə tikilmiş məscid müsəlman aləminin ən qədim məscidlərindən biridir. Azərbaycanın digər qədim şəhəri olan Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri olan Kiş kilsəsi - Müqəddəs Yelisey kilsəsi yerləşir. Adlarını çəkdiyimiz hər iki məbəd dövlət tərəfindən əsaslı şəkildə təmir, bərpa edilib və qorunur. Bakıda qədim atəşpərəstlik məbədi olan Atəşgahın yerləşməsi isə Azərbaycanda Zərdüştlük dininin ənənələrinin olduğunu göstərir. Bütün bunlar Azərbaycanın qədim dövrdən bu günə qədər multikultural mühitə və dəyərlərə malik olduğunu, tolerantlıq ənənələrini yaşatdığını bir daha ortaya qoyur. Təsadüfi deyil ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş müəyyən dairələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu inkar edə bilmirlər, ölkəmizin tolerantlıq nümunəsi olduğunu diqqətə çatdırırlar.

Bunlarla yanaşı, bu gün Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasını, təbliğ və təşviq edilməsini daim diqqət mərkəzində saxlayır. Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis edilməsi dövlət başçısının milli-mənəvi dəyərlər sahəsinə göstərdiyi diqqət və qayğının daha bir ifadəsidir. Qloballaşma prosesinin gətirdiyi bir sıra tendensiyaların müasir cəmiyyətlərə intensiv təsir göstərdiyi hazırkı şəraitdə xalqların milli xüsusiyyətlərinin, mədəniyyətinin, milli özünəməxsusluğunun qorunub saxlanılması vacib əhəmiyyətə malikdir. Bu baxımdan, Mənəvi Dəyərlərin Təbliği Fondunun milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəslə çatdırılması istiqamətində gördüyü işlər, həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər də bu kontekstdə xüsusi önəm kəsb edir.

Dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycan həmçinin beynəlxalq dialoq və əməkdaşlıq məkanı olaraq qlobal əhəmiyyətli nüfuzlu tədbirlərə uğurla ev sahibliyi edir, sivilizasiyalararası dialoqun intensiv və faydalı xarakter daşımasına fundamental töhfələr verir. 2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Son olaraq cari ilin 2-3 may tarixlərində paytaxt Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi bu baxımdan xüsusi qeyd edilməlidir. Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilib, tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak ediblər. Bütövlükdə, belə tədbirlər bəşəriyyət üçün aktual məsələlərin həlli yollarının müzakirə platforması kimi mühüm əhəmiyyətə malikdir, dünyaya mütərəqqi nümunə təqdim edən Azərbaycanın dinlər və mədəniyyətlərarası dialoqa mühüm töhfələr verdiyini göstərir.

# Azərbaycan Dünya Neft Şurasının 2023-cü ildə keçirəcəyi Konqresə ev sahibliyini irəli sürüb

Azərbaycanın Dünya Neft Şurasının (WPC) 2023-cü ildə keçirəcəyi 24-cü Dünya Neft Konqresinə ev sahibliyi irəli sürülüb.

AZƏRTAC xəbər verir ki, mayın 8-də energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə "Azərbaycan Milli Neft Komitəsi" İctimai Birliyinin (İB) ötənilki fəaliyyətinə və qarşıda duran vəzifələrə həsr edilmiş iclası keçirilib.

P.Şahbazov "Azərbaycan Milli Neft Komitəsi" İB-in 2005-ci ildə təsis edildiyini diqqətə çatdırıb. O, Azərbaycanın Dünya Neft Şurasına üzv kimi qəbulunda Ümummilli Lider Heydər Əliyevin neft strategiyasının rolunu xüsusi qeyd edib. Bildirib ki, Dünya Neft Şurasının əsas qayəsi qlobal miqyasda karbohidrogen ehtiyatlarından insanların rifahı naminə istifadə edilməsidir və bu, Azərbaycanın enerji kursunun da başlıca hədəfidir.

Karbohidrogen ehtiyatları və düşünülmüş məqsədyönlü siyasətin bütövlükdə regional inkişafı təmin etdiyini deyən nazir enerji layihələrinin əhəmiyyətindən danışıb. Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində Xəzər regionunun tərəfdaşlıq münasibətləri ilə dünyanın digər enerji mərkəzlərindən fərqli statusda olduğunu bildirib.



Qeyd edib ki, indiyə kimi ölkəmizdə hasil olunmuş 2 milyard 58 milyon ton neftin 746 milyon tonu müstəqillik dövründə çıxarılıb. Hazırda orta gündəlik neft hasilatı isə təxminən 770 min barreldir.

Energetika naziri neftlə bağlı fəaliyyətin bir neçə istiqamətdə həyata keçirildiyini deyib: *"Bu gün neft ehtiyatlarının işlənməsi, neft sənayesinin investisiya ilə təmin edilməsi ilə yanaşı, neftin qiymətinin sabitləşdirilməsi prosesində də iştirak edirik. Eyni zamanda, neftin qiymətlərdən asılılığının azaldılması üçün hasilatda səmərəliliyə nail olunması, neftdən əlavə dəyər yaradan məhsul kimi istifadə edilməsi istiqamətində tədbirlər görürük. Həmçinin, quruda və açıq dənizdə ilk dəfə neft hasilatının, neft sənayesində bir sıra mühüm ilklərin beşiyi kimi ölkəmizin dünyada tanıdılmasına çalışırıq".*

Dünya Neft Şurasının 2023-cü ildə keçiriləcək 24-cü Dünya Neft Konqresinə ev sahibliyi etməsi üçün Bakının namizəd olduğunu deyən nazir lazımi dəstəyin qazanılmasında "Azərbaycan Milli Neft Komitəsi" İB-in üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd edib, müvafiq tapşırıqlar verib.

Sonra "Azərbaycan Milli Neft Komitəsi" İB-in illik fəaliyyətinə dair hesabat dinlənilib. Birliyin idarəetmə aparatının rəhbəri Nazim Vəliyev "Azərbaycan Milli Neft Komitəsi" İB-in ölkəmizin neft-qaz sektorundakı maraqlarını Dünya Neft Şurası beynəlxalq təşkilatında fəal təmsil etdiyini vurğulayaraq, Bakı şəhərinin namizədliyi çərçivəsində görülmüş işləri diqqətə çatdırıb.

Energetika nazirinin müavini Elnur Soltanov isə bildirib ki, 24-cü Dünya Neft Konqresinə namizəd bu ilin iyununda Sankt-Peterburqda keçiriləcək növbəti iclası zamanı gizli səsvermə ilə müəyyən ediləcək. Azərbaycanla yanaşı, Kanada, Birləşmiş Ərəb Əmirlikləri, Argentina və Qazaxıstan da namizəd ölkələr sırasındadır. İclasda üzv ölkələrin dəstəyinin qazanılması üçün aparılan təbliğat işləri barədə söhbət açılıb.

Həmçinin "Azərbaycan Milli Neft Komitəsi" İB-in gələcək fəaliyyətinin digər istiqamətlərinə dair də müzakirələr aparılıb.

# YAP Nəsimi rayon təşkilatının üzvləri Heydər Əliyev Mərkəzində olublar



Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə silsilə tədbirlər keçirir. Bu tədbirlər çərçivəsində rayon təşkilatının üzvləri Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Ziyarət zamanı gənclərə Heydər Əliyev Mərkəzinin fəaliyyəti barədə məlumat verilib. YAP Nəsimi rayon təşkilatının üzvləri Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən stendlərə, fotosərgilərə tamaşa ediblər. Azərbaycan xalqının Ümummilli Liderinin həyatının və ictimai-siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən sərgi ilə tanış olan YAP gəncləri bir daha əmin olublar ki, Ulu Öndər Heydər Əliyev bütün ömrü boyu Öz xalqı, dövləti və Vətəni üçün yorulmadan, qətiyyətlə çalışıb. **"Biz bütün uğurlarımız üçün Ulu Öndərin müdrik siyasətinə, parlaq ideyalarına minnətdarıq. Ulu Öndər Heydər Əliyevin ideyaları əbədiyaşardır",** - deyə gənclər qeyd ediblər.

**Müşfiqə BAYRAMLI**

# Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətləri hər zaman minnətdarlıqla xatırlanacaq



***Milli Məclis sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova www.yap.org.az saytına müsahibə verib:***

**- Bahar xanım, mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü tamam olur. Fəaliyyəti XX əsr Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış Heydər Əliyev dühasının Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətləri necə qiymətləndirə bilərsiniz?**

- Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi elə bir tarixi şəxsiyyətdir ki, Onun haqqında danışanda yalnız həyatı və fəaliyyəti barədə deyil, dövlət idarəçiliyində təmsil olunduğu və Azərbaycan xalqının mühüm tarixi dövrünü əhatə edən bütöv bir qərinədən bəhs etmək lazım gəlir. Ona görə ki, Ümummilli Lider Heydər Əliyev bütün ömrünü mənsub olduğu xalqa, onun inkişafına, minilliklərin süzgəcindən keçib gələn milli-mənəvi dəyərlərin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılmasına həsr edib.

Birmənalı şəkildə demək olar ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlər göstərib. Onun xidmətləri tarixin yaddaşına qızıl hərflərlə yazılıb və bundan sonra mövcud ola biləcək digər siyasi ideologiyalar və ya siyasətçilər bu xidmətləri şübhə altına ala, onlara kölgə sala bilməyəcəklər. Buna cəhd göstərsələr belə, uğursuzluğa düçar olacaqlar.

Heç şübhəsiz, qətiyyətlə demək olar ki, Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük dühalardan biridir. O Öz fəaliyyəti ilə təkcə böyük şəxsiyyət olduğunu nümayiş etdirməyib, həm də malik olduğu qətiyyət və siyasi iradə sayəsində mənsub olduğu xalqı və qurduğu dövləti dünya miqyasında tanıda bilib. Ona görə də hesab edirəm ki, Azərbaycan xalqı yaşadıqca onun şüurunda, təfəkküründə və yaddaşında Ulu Öndərin özünəməxsus yeri olacaq. Onun xidmətləri zaman-zaman müzakirə predmeti, araşdırma və tədqiqat obyekti olacaq. Gələcək nəsillər, o cümlədən Heydər Əliyev irsinə müraciət edən şəxslər bu irsin zəngin çalarlarını və bütün tərəflərini üzə çıxarmaqla yanaşı, bu şəxsiyyətin zəngin irsindən bəhrələnəcəklər. Ən nəhayət, Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətləri hər zaman minnətdarlıqla xatırlanacaq.

**- Azərbaycana rəhbərliyinin birinci dövründə mərkəzi hakimiyyətin bütün təzyiq və əngəllərinə rəğmən, Ulu Öndər Heydər Əliyevin xalqının gələcəyi naminə atdığı tarixi addımlar və gördüyü mühüm işlərdən, onların əhəmiyyətindən bəhs etməyinizi xahiş edirik.**

- Azərbaycan Sovet İttifaqının tərkibinə daxil olanda birliyin suveren hüquqa malik müttəfiq respublikası olsa da, tam müstəqillikdən danışmaq qeyri-mümkün idi. Buna baxmayaraq, Ulu Öndər sovet dövründə Azərbaycanın birinci şəxsi olanda atdığı bəzi addımlarla məhdud çərçivədəki hüquqlardan maksimum yararlanmaq şansını əldən vermədi, hətta bu yöndə müəyyən dərəcədə uğurlar əldə etdi. Məsələn, Azərbaycan dilinin Azərbaycanın 1978-ci il Konstitusiyasında dövlət dili kimi rəsmiləşdirilməsi, təhsil və elm sahəsində ana dilimizdə nəşrlərin sayının artması bunlara misal ola bilər.

Digər tərəfdən, ittifaq imkanlarının bütün parametrləri ilə respublikanın inkişafına yönəldilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Onun rəhbərlik etdiyi dövrdə Azərbaycan inkişaf etmiş sənaye potensialına malik respublikaya çevrildi. Bu zaman ittifaqın tələblərini yerinə yetirməklə yanaşı, ittifaqa göndərilən məhsulların çox hissəsinin Azərbaycana investisiya və maliyyə qismində geri qaytarılması, ayrı-ayrı sənaye sahələrinin yaradılması vasitəsilə xalqın bütün potensialını inkişafa yönəltməklə genişmiqyaslı tərəqqinin təməli atıldı.

Həmin dövrdə o vaxta qədər Azərbaycanda mövcud olmayan və çatışmayan kadrların yetişdirilməsi, bir çoxlarının ittifaq təhsil müəssisələrinə göndərilməsi gələcəyə hesablanmış addımlar idi. Eyni zamanda hərbi sahədə kadrların yetişdirilməsi üçün Ulu Öndər böyük işlər görüb. Bakıda C.Naxçıvanski adına hərbi məktəbin yaradılması, ittifaqın hərbi kadrlar hazırlayan ali məktəblərinə azərbaycanlıların göndərilməsi də məhz həmin uzaqgörən siyasətin nəticəsi idi. Zaman da göstərdi ki, həmin hərbi kadr potensialı olmasaydı, Qarabağ uğrunda gedən müharibədə Azərbaycan qoşunlara rəhbərlik etməyə zabit və komandirlər tapa bilməzdi. Ona görə də bu addımları birmənalı şəkildə müstəqilliyin bünövrəsi hesab etmək olar.

Digər bir məqam o idi ki, Azərbaycanda hakimiyyətinin birinci dövründə Heydər Əliyev mərkəzdən olan təzyiq və maneələrə baxmayaraq, xalqın yetişdirdiyi milli təfəkkürlü elm, təhsil və mədəniyyət xadimlərini, o cümlədən ziyalıları qoruyurdu. Bu da sübut edir ki, O, təkcə Azərbaycanın sərvətlərinin, iqtisadiyyatının inkişafına deyil, xalqın yetişdirdiyi ziyalılara da diqqət və qayğı göstərirdi. Məhz həmin ziyalılar da 80-ci illərin sonu və 90-cı illərin əvvəllərində mərkəzdənqaçma meyillərinin gücləndiyi vaxtda Azərbaycanda yeni ictimai-siyasi təfəkkürün formalaşmasında, ictimai şüurda dəyişikliyin yaranmasında iştirak edən potensiala çevrildilər.

Təbii ki, həmin potensial olmasaydı, ermənilərin separatizm meyillərinə qarşı xalqın kütləvi müqavimətini təşkil etmək mümkün olmazdı. Yəni xalqın milli özünüdərkinin oyanmasında məhz Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyəti dövründə yürütdüyü siyasət dayanırdı. Sonradan bu özünüdərk Ümummilli Liderin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtması və müstəqil dövlət qurmaq imkanı və bu yöndə məqsədlərin reallaşması üçün istifadə edildi.

**- Bahar xanım, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev yüksək postdan istefaya getdikdən bir neçə il sonra Azərbaycana qayıtdı və Bakıda yaşamağa imkan verilmədiyi üçün Naxçıvana getdi. Ümummilli Lider Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə də xalqımız qarşısında tutduğu vəzifənin hüdudlarını aşan misilsiz xidmətlər göstərib. Hətta Yeni Azərbaycan Partiyasının yaranması da həmin dövrə təsadüf edib. Ulu Öndərin Naxçıvandakı fəaliyyəti barədə fikirlərinizi bizimlə bölüşməyinizi istərdik.**

- SSRİ rəhbərliyindən istefasından sonra Heydər Əliyevin Azərbaycana qayıtmasına imkan vermədilər, hətta həyatı üçün təhlükənin mövcud olduğunu belə nəzərə almadan respublika rəhbərlyi tərəfindən Onun ölkədən kənarda saxlanmasına cəhdlər göstərilirdi. 1990-cı ildə Ümummilli Lider Azərbaycana qayıtsa da, Bakıda qalmasına imkan verilmədi. Onun həmin vaxt mərkəzi hakimiyyətdə və respublika rəhbərliyində kifayət qədər yaxından tanıyan şəxslər tərəfindən müdafiə edilməməsi Naxçıvana getməsini şərtləndirirdi. Əslində mövcud vəziyyət Onun üçün ağrılı bir məqam idi. Parlamentdə çıxışı zamanı və digər məsələlərdə Ona qarşı göstərilən ədalətsizlik Onun incik düşməsinə kifayət qədər haqq qazandırırdı. Lakin Heydər Əliyev sınmadı və o vaxt doğma Naxçıvan Ona dəstək və dayaq oldu.

Digər tərəfdən, müharibə, iqtisadi böhran şəraitində yaşayan naxçıvanlılar Ulu Öndərə özlərinin nicatı və son ümid yeri kimi baxırdılar. Buna görə də Ümummilli Lideri 1990-cı il iyulun 22-də şəhərin mərkəzi meydanına toplaşan 80 min insan böyük coşqu ilə qarşıladı. Çünki blokadada olan muxtar respublika əhalisi həm də erməni təcavüzü ilə qarşı-qarşıya idi. Məhz bu səbəbdən Ulu Öndərin Naxçıvanın təhlükəsizliyinin təmin edilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində vacib rol oynadı. Üç tərəfdən düşmən əhatəsində qalan, ümumiyyətlə, dünyadan tamamilə təcrid edilən muxtar respublikanın blokadadan çıxarılması üçün Heydər Əliyev mühüm addımlar atdı. İran və Türkiyə ilə əlaqələr yaratdı, digər dövlətlərlə münasibətlər qurmaq yönündə işlər gördü.

Eyni zamanda, Heydər Əliyev yalnız muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mühüm rolu olan qərarların qəbul edilməsinə nail oldu. Belə ki, Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən sessiyasında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edildi. Ulu Öndərimizin Sədrliyi ilə keçirilən həmin tarixi sessiyada ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu. Həmçinin Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi.

Ümummilli Lider Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində müstəqil, demokratik və dünyəvi dövlət yaradılması üçün siyasi və ideoloji əhəmiyyətli tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. Beləliklə, Naxçıvanda gedən tarixi proseslər zamanı atılan addımlar müstəqilliyin bərpası üçün mühüm rol oynadı. Bütün bu cəsarətli addımlar sübut edirdi ki, Heydər Əliyevin fəaliyyəti Naxçıvanın hüdudlarına sığmır.

Yeni Azərbaycan Partiyasının (YAP) yaranması prosesinə gəlincə, həmin dövrdə ölkəmizin bütün guşələrində qəlbində Heydər Əliyevə və böyük Azərbaycana sevgi ilə yaşayan yüz minlərlə insan respublikadakı vəziyyəti yaxından izləyirdi. Bu vəziyyət yenicə müstəqillik qazanan respublikanın gələcək taleyi üçün ciddi təhlükələrin olduğunu göstərirdi. AXC-Müsavat cütlüyünün bir-birinin ardınca buraxdığı siyasi səhvlər, cinayətə bərabər əməllər Azərbaycanın müstəqilliyini sual altında qoyurdu. Getdikcə artan ziddiyyətlər və xaos insanlarda narahatlıq yaradırdı. Bütün bunlar təbii olaraq xalqın Heydər Əliyevin böyük siyasətə qayıtması arzusunun daha da alovlanmasına gətirib çıxardı. Çünki Ümummilli Liderin Naxçıvanda atdığı addımları, orada həm erməni təcavüzünün qarşısının alınması, həm də ictimai-siyasi sabitlik yaratması yönündə fəaliyyətini insanlar görür və Azərbaycanın xilası üçün Ondan kömək gözləyirdilər. Bu məqamda siyasi cəhətdən kifayət qədər fəal şəxslər, o cümlədən ziyalılar həmin fəallığı məhz Azərbaycanın müstəqilliyinin qorunmasına yönəltmək üçün əsas mərkəz rolunu oynaya biləcək, müstəqilliyi şəxsi və qrup mövqeyindən üstün tuta biləcək siyasi təşkilatın yaranması və rəhbərliyində Ümummilli Lideri görmək istəyi ilə Ulu Öndərə üz tutdular. Heydər Əliyev isə bir çox müzakirələrdən sonra belə bir siyasi partiyanın yaranmasını məqsədəuyğun hesab etdi və Özünün də bu partiyanın rəhbərliyində təmsil olunmasına razılığını bildirdi.

Lakin o dövrdə Heydər Əliyevin adından belə ehtiyat edən Azərbaycan iqtidarı partiyanın Bakıda təsis olunmasına imkan vermədi. Çünki mövcud hakimiyyət Ulu Öndərin rəhbərliyi altında siyasi partiyanın yaranmasına icazə verilməsini özünün siyasi iflası hesab edirdi. Odur ki, bunun qarşısını almaq üçün bütün tədbirlərə əl atıldı. Buna baxmayaraq, Heydər Əliyevi özünə lider hesab edən şəxslər axın-axın Naxçıvana üz tutur və bu prosesi sürətləndirmək üçün işlər görürdülər. Ovaxtkı iqtidar Naxçıvana edilən bu səfərlərin də qarşısını almağa çalışırdı. Bu təzyiq və təsirlərə baxmayaraq, 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyası təsis olundu. Naxçıvanda 500 nümayəndənin iştirakı ilə keçirilən konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi.

Bir maraqlı məqamı qeyd edim ki, məhz Ulu Öndərin özü Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsini işləyib hazırlamışdı. Həmin proqram sənədində partiya quruculuğu, partiyanın məqsəd və məramları çərçivəsində Azərbaycanın gələcək inkişaf perspektivləri konkret olaraq qeyd olunmuşdu. Həmin proqram sonradan Azərbaycanın inkişafı üçün vacib bir sənədə çevrildi. Ümummilli Lider bu partiyanın Azərbaycanı irəliyə aparacaq siyasi güc mərkəzinə çevriləcəyinə böyük ümid bəsləyirdi. Ona görə də onun proqramında qarşıya qoyulan vəzifələr yalnız partiya fəaliyyəti üçün nəzərdə tutulmamışdı və geniş əhatə dairəsinə malik idi. Onu da qeyd edim ki, bu təsis konfransından sonra respublikanın bütün ərazilərində YAP rayon və şəhər təşkilatları yaranmağa başladı. Mən o vaxt Yasamal rayonu ərazisində bu proseslərə qoşuldum və qısa bir müddətdə insanların kütləvi şəkildə partiyaya axın etdiyinin şahidi oldum.

**- Qeyd etdiyiniz kimi, Azərbaycanda təsadüfən hakimiyyətə yiyələnmiş qüvvələr cəmi 1 il sonra 1992-ci ildə yaş senzi tətbiq edərək prezident seçilməsinə mane olduqları dahi şəxsiyyətin köməyinə möhtac oldular. Azərbaycanın dövlətçiliyinin xilası, qurtuluşu kimi dəyərləndirilən həmin dövrdə xilaskarlıq missiyasını üzərinə götürən Ulu Öndərin 1993-cü ilin iyunundan başlayan 10 illik fəaliyyətinin əsas məqamlarına toxunmağınızı xahiş edirik.**

- Əlbəttə, həmin dövrdə olduqca təhlükəli vəziyyət yaranmışdı və doğrudan da Azərbaycan parçalanmaqdan, vətəndaş müharibəsindən qurtuldu. Xalqın xilası üçün yeganə istinadgah olan Heydər Əliyevin sayəsində Azərbaycan müstəqilliyini qoruyub saxladı.

Məlum olduğu kimi, təsadüfən hakimiyyətə yiyələnən, heç bir iqtisadi və siyasi konsepsiyası, proqramı olmayan AXC-Müsavat cütlüyünün səriştəsiz fəaliyyəti dövlət quruculuğunda və dövlət idarəçiliyində, habelə xalqın müdafiə qabiliyyətini müharibə şəraitində olan Azərbaycanın təhlükəsizliyinə yönəltmək işində uğur qazanılmasını istisna edirdi. Son nəticədə müstəqillik əldə etdikdən qısa müddət sonra Azərbaycan nəinki müstəqilliyin itirilməsi, ümumiyyətlə, parçalanma təhükəsi ilə üz-üzə qaldı. Belə bir məqamda xalqın verdiyi düzgün qərar Heydər Əliyevə müraciət olunması və təkidlə hakimiyyətə qayıtması oldu.

Ulu Öndərin hakimiyyətdə kifayət qədər mühüm posta seçilməsi bu prosesi təhlükəsiz məcraya, vətəndaş müharibəsindən xilas yoluna yönəltməyə imkan verdi. Çünki Heydər Əliyevin gəlişi Azərbaycanı vətəndaş qarşıdurmasından xilas etdi, qısa müddətdə ölkədəki separatçı qüvvələrin fəaliyyətinə son qoyuldu. Tarix də göstərdi ki, həmin qərar Azərbaycan xalqının və dövlətinin sonrakı taleyinin həllində, dövlətçiliyinin bünövrəsinin qoyulmasında əsas amil kimi çıxış edib.

Burada mühüm məqamı qeyd etmək istərdim ki, Azərbaycan Prezidenti seçildikdən sonra Ümummilli Liderin birbaşa xalqa müraciəti və bundan sonra könüllü olaraq kütləvi şəkildə cəbhəyə yollanan vətən övladlarının qəhrəmanlığı sayəsində Azərbaycan Ordusunun 1994-cü ilin yanvarında həyata keçirdiyi Horadiz əməliyyatı ilə Füzuli rayonunun 22 kəndi və 1 qəsəbəsi işğaldan azad olundu. Nəticədə düşmən atəşkəsə razı oldu və əldə olunan atəşkəsdən sonra Azərbaycan dövlət quruculuğu mərhələsinə qədəm qoydu.

Bundan sonra ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, iqtisadi tənəzzüldən xilas edilməsi, daxili ictimai-siyasi sabitliyin təmin olunması və xarici siyasətinin müəyyənləşdirilməsi istiqamətində mühüm işlər görüldü. Bu da keçmiş iqtidarın fəaliyyəti nəticəsində ölkənin düşdüyü siyasi blokadadan, izolyasiyadan qurtulmaq üçün zəmin yaratdı. Ümummilli Lider keçmiş hakimiyyətin yanlış siyasəti nəticəsində münasibətlərin gərgin olduğu region dövlətləri ilə, habelə dünya siyasətində həlledici rola malik böyük güclərlə əməkdaşlığın mümkün olmasını sübut etdi.

Bütün bunlar da Azərbaycanın siyasi və iqtisadi potensialı yüksək olan bir dövlət kimi formalaşmasına, hətta dünyanın aparıcı dövlətləri ilə tərəfdaş qismində çıxış etməsinə imkan yaratdı. Azərbaycanın bu mövqeyə çıxması onun gələcək təhlükəsizliyinin qarantı olan münasibətlərin qurulması, bu kontekstdə beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsində milli maraqların qətiyyətlə təmin olunması baxımından mühüm tarixi əhəmiyyət daşıyır.

Ulu Öndərin hakimiyyətə yenidən qayıdışından dərhal sonra qanunvericilik sahəsində islahatlar aparıldı, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi, ilk parlament seçkiləri keçirildi, gənclər siyasəti, mədəniyyət, idmanın inkişafı sahəsində addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini xilas etməklə yanaşı, ölkəmizdə yaşayan bütün xalqların və millətlərin hüquqlarının təminatçısı olduğunu sübuta yetirdi. Bununla da əsl vətəndaş cəmiyyətinin qurulmasına zəmin yaratdı. O, həmçinin xaricdə Azərbaycan diasporunun formalaşdırılmasına, dünya azərbaycanlılarının vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirilməsinə nail oldu.

Azərbaycan müstəqillik tarixinin Heydər Əliyevin hakimiyyətinə təsadüf edən həmin 10 illik dövrü Ulu Öndərin Azərbaycan xalqını ağır vəziyyətdən çıxararaq uğura qovuşdurması, müstəqilliyinin, eyni zamanda bu müstəqilliyin dönməzliyinin, əbədiliyinin təmin olunması ilə yadda qalır.

Ümummilli Liderin hakimiyyəti dövründə Azərbaycan Respublikası beynəlxalq təşkilatların bərabərhüquqlu üzvünə çevrildi. Azərbaycanın daha uğurlu beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarı kimi çıxış etməsi, bəzilərinin həyata keçirilməsi və digərlərinin də əsasının qoyulması Ulu Öndərin adı ilə bağlıdır. Azərbaycan nəinki öz təbii ehtiyatlarının, digər dövlətlərin də enerji ehtiyatlarını Azərbaycandan keçməklə dünya bazarına çıxaracaq beynəlxalq əhəmiyyətli layihələrə imza atdı. Yeni neft və qaz yataqlarının işlənməsi üçün xarici dövlətlərin nüfuzlu şirkətləri ilə müqavilələr imzaladı. "Əsrin müqaviləsi" sazişinin imzalanması ilə dünyanın aparıcı dövlətlərinin nüfuzlu şirkətlərinin iştirak etdiyi konsorsiumların yaranmasına nail oldu. Azərbaycan daha genişmiqyaslı tərəfdaşlar əldə etmək dövrünə qədəm qoydu. Ölkəmiz 1992-ci ildən BMT-yə, ATƏT-ə və bir çox beynəlxalq təşkilatlara üzv olmuşdu. Avropa Şurası başda olmaqla digər nüfuzlu beynəlxalq təşkilatlara üzvlük nəticəsində isə Azərbaycan insan hüquq və azadlıqlarının qorunduğu bir məkanın bərabərhüquqlu iştirakçısına çevrildi. Və biz bu vəzifənin hansı çətin və məsuliyyətli bir dövrdə yerinə yetirilməsi haqqında məlumatları bugünkü və gələcək nəslə çatdırmalıyıq ki, müstəqilliyin nəyin bahasına qorunub saxlandığını dərk etsinlər və unutmasınlar.

**- Sizin də qeyd etdiyiniz kimi, Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin bütün mərhələləri göstərir ki, müasir müstəqil Azərbaycanın inkişafı məhz Onun yorulmaz, çoxşaxəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heç kimə sirr deyil ki, Ulu Öndərin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələbləri və reallıqlarına müvafiq surətdə uğurla davam etdirilir. Bu baxımdan, müasir müstəqil Azərbaycanın hazırkı və gələcək inkişafını necə dəyərləndirirsiniz?**

- Bu bir faktdır ki, Ümummilli Liderin ən böyük xidməti Azərbaycan dövlətinin sonrakı dövr üçün inkişafını, xalqın bugünkü və gələcək rifahını, təhlükəsizlik, sabitlik və tərəqqi şəraitində yaşamasının dönməzliyini təmin edən siyasi xadimi yetişdirməsi oldu.

Təbii ki, Heydər Əliyev irsi Azərbaycanın gələcək inkişafı üçün fundamental əsas kimi çıxış edir. Lakin XXI əsrin əvvəlində dünyadakı proseslər də dəyişirdi. 2003-cü ilin ortalarında Ulu Öndərin qəbul etdiyi vacib qərarlardan biri cənab İlham Əliyevin sonrakı 5 illik dövr üçün prezidentliyə namizədliyinin irəli sürülməsi idi. Yeni Azərbaycan Partiyası da bu qərarı yekdilliklə dəstəklədi. Xalq böyük səs çoxluğu ilə İlham Əliyevi dövlət başçısı seçməklə bu davamlı inkişafın təmin olunmasına böyük dəstək verdi. Çünki istər xarici, istərsə də daxili siyasətdə əsası Ümummilli Lider tərəfindən qoyulan bu siyasi xətt davam etdirilməli idi. Bu da bir həqiqətdir ki, xaricdəki bəzi iqtisadi və siyasi dairələrin dəstəyi ilə daxildə məqam gözləyən qüvvələr var idi və onlar 2003-cü ilin oktyabrında keçirilən prezident seçkisindən sonra sabitliyi pozmağa cəhd etdilər. Lakin Ulu Öndərin əsasını qoyduğu Azərbaycan dövlətçiliyinin sarsılmaz olduğu həmin dövrdə bir daha sübut olundu.

Bundan sonra Azərbaycanda sabitlik və inkişaf dövrünün yeni mərhələsi başladı. Bu 15 ildə Azərbaycanın rifahı, çiçəklənməsi, ölkəmizin regionda və dünyada nüfuzunun daha da artması, beynəlxalq hüququn ən mühüm aktorlarından birinə çevrilməsi, vətəndaşların, dövlətin təhlükəsizliyinin müdafiəsi yönündə çox mühüm addımlar atılıb. Azərbaycan dövlətinin hərtərəfli qüdrətli dövlətə çevrilməsi üçün Azərbaycan Prezidenti İlham Əliyevin bu illər ərzində atdığı addımlar beynəlxalq dairələr tərəfindən də dəstəklənir. Artıq etiraf edilir ki, Azərbaycan son 15 ildə olduğu qədər qüdrətli və qətiyyətli mövqeyə malik olmayıb.

Bugünkü uğurlarımız üçün əlbəttə ki, ilk növbədə Heydər Əliyev şəxsiyyətinə, Onun müəyyənləşdirdiyi ideoloji, siyasi xəttə və bu xətti davam etdirmək üçün siyasi varisliyi üzərinə götürmüş cənab İlham Əliyevə borcluyuq.

**- Bahar xanım, Ümummilli Liderin banisi olduğu Yeni Azərbaycan Partiyasının rəhbərliyində təmsil olunan bir şəxs kimi hakimiyyətə gəldiyi və dövlətçiliyimizin qurulmasının sonrakı dövrlərində Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrinizi bölüşməyinizi istərdik.**

- Mən Ulu Öndərlə ilk dəfə 12 yaşımda görüşmüşəm. Elə o zamandan da Heydər Əliyev şəxsiyyəti mənim üçün ideala çevrilib. Əldə etdiyim bütün uğurlarımda da Ümummilli Lider və Onun ideyalarına sadiqliyin mühüm rol oynadığına dərindən inanıram. Heydər Əliyevin gənclərə və Onunla birlikdə Azərbaycana xidmət yolunu seçənlərə göstərdiyi diqqəti heç vaxt unuda bilmərəm.

Onu qeyd edim ki, Ümummilli Lider biz qadınların dövlət və ictimai həyata cəlb olunmağımıza xüsusi əhəmiyyət verməklə yanaşı, kadr kimi formalaşmağımıza da xüsusi diqqət yetirir və yeri gəldikdə bizi hər cür təhlükələrdən qorumağa çalışır, uğurlarımızı şəxsən dəyərləndirirdi. Bir YAP üzvü, Azərbaycan qadını kimi bu diqqət və himayəni həmişə üzərimdə hiss etmişəm. Mən özümü şanslı insanlardan biri hesab edirəm ki, Onu tanımışam, Onunla ünsiyyətdə olmuşam, Onun tapşırıqlarını yerinə yetirmişəm, Onun formalaşdırdığı komandada ən kiçik bir postdan bugünkü tutduğum vəzifəyədək yol keçmişəm.

Ulu Öndərlə dəfələrlə görüşmək mənə qismət olub. Amma ən yadda qalan hadisələrdən biri haqda danışmaq istəyirəm. 1999-cu ilin dekabr ayında Yeni Azərbaycan Partiyasının I Qurultayı keçirilmiş, YAP İcra Katibliyi yeni formalaşdırılmış və YAP İcra katibinin müavini, Siyasi Şura və İdarə Heyətinin üzvü seçilmişdim.

Mənim üçün çox vacib olan bu seçkidən bir neçə ay sonra 2000-ci il martın 7-də ovaxtkı Respublika sarayında keçirilən ənənəvi bayram tədbirində protokol xidmətinin işçilərindən biri mənə yaxınlaşdı və Ümummilli Lider Heydər Əliyevin əyləşdiyi sırada oturmağa dəvət elədi. Məndən sağda və soldakı kreslolar boş idi. Bu zaman təsəvvürümə gətirmədiyim hadisə baş verdi və Heydər Əliyev zala daxil oldu və mənim yanımdakı kresloda əyləşdi. Tədbirin əvvəlində tanınmış Azərbaycan qadınları haqqında film nümayiş etdirilirdi. Birdən O əlini ekrana uzadıb soruşdu ki, o qadını tanıyırsanmı? Göstərdiyi qadın Azərbaycanın ilk qadın təyyarəçisi Leyla Məmmədbəyova idi. Sonra digər məsələlər, o cümlədən YAP İcra Katibliyindəki işlərlə maraqlandı. Çox maraqlı bir söhbətin tərəfi və soruşulanlar barədə məlumatlı olmağımla Onu qane etdiyim üçün sevinirdim.

Həmin görüşdəki bir məqamı da ilk dəfə dilə gətirmək istəyirəm. Bu hadisənin mənim üçün əlamətdar olmasının digər bir səbəbi partiyada yüksək vəzifəyə çəkilməyimlə bağlı idi. Bəzi dairələrdə "Bahar Muradova kimdir və niyə məhz O" səpkili suallar dolaşırdı. Söhbət əsnasında Ümummilli Lider "Bilirsən də niyə mənim yanımda əyləşmisən?", - dedi və sonra davam etdi: "Çünki hər kəs bilməlidir ki, sən Yeni Azərbaycan Partiyasının İcra Katibliyinə seçilmisən və səni mən seçmişəm". Doğrudan da o hadisədən sonra bütün suallar ortadan qalxdı. O müdrik insan bu addımı ilə sanki siyasətə yeni qatılan bir gənc qadını elə ilk növbədə qadınlara və ictimaiyyətə təqdim edirdi. Bu mənimlə bağlı olan maraqlı bir faktdır. Amma mən inanıram ki, Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə belə bir qayğı, himayə təkcə mənə yox, digər gənclərə də daim göstərilib. Bu da onu göstərir ki, Heydər Əliyev hər zaman yalnız xalqın ümumi deyil, eləcə də ayrı-ayrı şəxslərin fərdi taleyində də böyük rol oynamışdır və bu siyasət bu gün də ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir.

Onu da qeyd edim ki, Heydər Əliyev siyasəti "Azərbaycanın uğur formulu"dur və bu siyasətə xidmət etməkdən qürur duyuram. Çünki İlham Əliyevin Sədrliyi altında Yeni Azərbaycan Partiyası Ulu Öndərin yadigarı kimi yeni və müstəqil Azərbaycanın qurulmasında vacib siyasi missiyanı həyata keçirən və bu siyasi xətti davam etdirən siyasi təşkilat kimi işini uğurla həyata keçirir. Məhz buna görə də gənclər başda olmaqla Azərbaycanın bir çox vətəndaşı gələcəyini bu partiyaya bağlayır və partiyamızın sıraları günbəgün genişlənir.

Sonda bir daha qeyd edim ki, 10 mayda anadan olmasının 96-cı ili tamam olan Ümummilli Lider Heydər Əliyevi böyük ehtiramla yad edirəm. Qətiyyətlə və əminliklə deyirəm ki, Ulu Öndər Heydər Əliyev bir tarixi şəxsiyyət, ölkə başçısı, partiya rəhbəri və bir insan kimi Onu sevənlərin qəlbində hər zaman yaşayacaq.

# Heydər Əliyev ideyaları əsasında uğurla davam etdirilən islahatlar kursu Azərbaycanın qarşısında yeni perspektivlər açır



Müasir müstəqil Azərbaycan tərəqqi yolunda inamla irəliləyir, inkişaf və yüksəliş mərhələsi yaşayır. Azərbaycanın mütərəqqi və nümunəvi inkişaf modeli dünyada diqqəti cəlb edir, qazanılan uğurlar davamlı xarakter daşıyır. Heç şübhəsiz, bütün bu nailiyyətlər asanlıqla əldə edilməyib və bugünkü inkişafın, yüksəlişin təməlində milli maraqlara, qlobal çağırışlara uyğun həyata keçirilən uzaqgörən siyasət dayanır. O siyasət ki, əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub və Prezident İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə davam etdirilir.

### AZƏRBAYCANIN ZƏNGİN DÖVLƏTÇİLİK TARİXİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİNİN MÜSTƏSNA YERİ VAR

Azərbaycanın zəngin dövlətçilik tarixində Heydər Əliyev şəxsiyyətinin müstəsna yeri var. Ulu Öndər Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı kimi dövlətçilik tariximizdə misilsiz xidmətləri, müstəsna rolu olduqca yüksək qiymətləndirilir, böyük dövlət xadimi hər zaman xüsusi hörmət və ehtiramla yad edilir. Prezident İlham Əliyev bu məqamlara toxunaraq **"Heydər Əliyevə Azərbaycan xalqının rəğbəti, dəstəyi həmişə çox böyük olmuşdur. Bunun əsas səbəbi ondan ibarətdir ki, O, Azərbaycana sovet dövründə rəhbərlik edən zaman respublikamızın uğurlu inkişafına təkan vermişdi. O vaxt Azərbaycan sovet məkanında 15 respublikadan fərqlənirdi, çünki Rusiyadan başqa cəmi iki respublika donor kimi fəaliyyət göstərirdi, onlardan biri Azərbaycan idi. Azərbaycan ən geridə qalmış yerdən Heydər Əliyevin dövründə, 1980-ci illərin əvvəllərində ən qabaqcıl yerlərə çıxmışdır və insanların rifah halı böyük dərəcədə yaxşılaşmışdır. Digər səbəblər isə ağır günlərdə Heydər Əliyevin cəsarətli addımları ilə bağlıdır. 20 Yanvar faciəsindən sonra O, dərhal sovet hökumətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayəti rəsmən pislədi, Kommunist Partiyasından çıxdı və Azərbaycan xalqı Onun simasında liderini gördü. Ondan sonrakı dövr Naxçıvan Muxtar Respublikası ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın Ali Məclisinin iclasında rəsmi dövlət bayrağı kimi tanınması tarixi hadisə idi. Deyə bilərəm ki, bu, müstəqilliyə aparan önəmli addımlardan biri idi"**, - deyib. Dövlət başçısı əlavə edib ki, bütün dövrlərdə Heydər Əliyev xalqla birlikdə idi: **"Məhz buna görə ağır günlərdə, faciəvi günlərdə Azərbaycan xalqı Ona müraciət etmişdir. 1993-cü il iyunun 15-də bu salonda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin Sədri vəzifəsinə seçilmişdir. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi".**

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN XALQI QARŞISINDA MİSİLSİZ XİDMƏTLƏRİ ONUN FƏALİYYƏTİNİN BÜTÜN DÖVRLƏRİNİ ƏHATƏ EDİR

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri Onun fəaliyyətinin bütün dövrlərini əhatə edir. Heydər Əliyevin 1969-1982-ci illər ərzində Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən islahat xarakterli, strateji əhəmiyyətli tədbirlər nəticəsində respublikamız sürətlə inkişaf edərək SSRİ miqyasında xüsusi çəkiyə malik olan respublikaya çevrildi. Əgər o zamanadək Azərbaycan SSRİ miqyasında yalnız xammal mənbəyi kimi çıxış edərək inkişaf tempinə görə ən geridə qalmış respublika kimi səciyyələndirilirdisə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən işlərin fonunda ölkəmiz sürətli inkişaf tempinə malik oldu və 1970-ci illərin sonu - 1980-ci illərin əvvəlində bütün sahələrdə davamlı inkişaf tempi qeydə alındı. Bundan başqa, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri, şübhəsiz ki, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Müstəqillik dövründə Azərbaycanın əldə etdiyi ən mühüm nailiyyətlər məhz dinamik iqtisadi inkişaf və möhkəm ictimai-siyasi sabitliklə bağlıdır. 1991-ci ildə dövlət müstəqilliyini əldə edən Azərbaycanın üzləşdiyi ən böyük problemlər məhz iqtisadi tənəzzül və ictimai-siyasi sahədə hökm sürən xaos və hərc-mərcliklə əlaqədar olub. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə sabitlik təmin edildi, iqtisadi inkişafın əsası qoyuldu, Azərbaycan tənəzzüldən xilas olaraq tərəqqi yoluna qədəm qoydu.

### ÜMUMMİLLİ LİDERİN ƏSASINI QOYDUĞU İSLAHATLAR STRATEGİYASI SOSİAL-İQTİSADİ İNKİŞAFI TƏMİN EDƏN MÜHÜM FAKTOR OLDU

Müstəqillik illərində Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilərək həyata keçirilən milli inkişaf strategiyası çoxşaxəli, səmərəli olması və dövrün tələblərinə tam cavab verməsi ilə fərqlənirdi. Ümummilli Lider Heydər Əliyevin çətin vəziyyətdə olan respublikanın gələcək iqtisadi inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiya konkret məqsədlərə çatmağa hesablanmışdı. Hədəflər konkret və dəqiq idi. Belə ki, bu strateji kursun uğurla həyata keçirilməsi sayəsində ölkədə iqtisadi fəallıq artacaq, iqtisadiyyatın müxtəlif sahələrinin investisiya təminatı güclənəcək, tələbata işləyən geniş müəssisələr şəbəkəsi yaranacaq, fəal insanların məşğulluğu təmin olunacaq və bu əsasda əhalinin sosial vəziyyəti yaxşılaşacaqdı. Müdrik siyasətçi olan Heydər Əliyev yaxşı başa düşürdü ki, müvafiq qanunvericilik bazası yaradılmadan, hüquqi-normativ sənədlər qəbul edilmədən ölkədə liberal bazar iqtisadiyyatına keçidi təmin etmək, yeni mülkiyyət münasibətləri formalaşdırmaq, sahibkarlığın arzuedilən səviyyədə inkişafına nail olmaq mümkün deyil. Ümummilli Liderin siyasi iradəsinə uyğun olaraq ölkədə yaradılan mükəmməl hüquqi baza sosialyönümlü liberal iqtisadiyyat quruculuğuna uğurlu keçidi təmin etdi, respublikamızda özəl bölmənin inkişafına təkan verdi. Ümumiyyətlə, Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə sərbəst bazar iqtisadiyyatının özəyi sayılan sahibkarlığın inkişafı üçün zəruri hüquqi baza dünya təcrübəsinə uyğun olaraq ardıcıl surətdə təkmilləşdirilib. İlk növbədə onu vurğulayaq ki, Ulu Öndərin rəhbərliyi ilə hazırlanıb qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şəraitin yaradılması, sahibkarlığa təminat verilməsi, rəqabət mexanizminin formalaşması və inkişafı, həmçinin rəqabətin qorunması ilə bağlı müddəalar öz əksini tapıb. Heydər Əliyev azad sahibkarlığın inkişafına mane olan bürokratik əngəllərin və yoxlamaların qarşısının alınması, bu sahədə şəffaflığın təmin edilməsi məqsədilə bir sıra Fərman və sərəncamlar imzalayıb. Bəhs olunan sənədlərin sırasında Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 iyun tarixli "İstehsalat, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə", 1999-cu il 7 yanvar tarixli "Dövlət nəzarət sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" fərmanları, 1997-ci il 24 iyun tarixli Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı (1997-2000-ci illər)" xüsusi yer tuturdu. Prezident Heydər Əliyevin 30 aprel 2001-ci il tarixli Fərmanı ilə İqtisadi İnkişaf Nazirliyinin yaradılmasının ölkəmizdə liberal iqtisadiyyatın bərqərar olmasında rolu əvəzsizdir. İqtisadi İnkişaf Nazirliyi və onun Sahibkarlığın İnkişafına Dövlət Dəstəyi Fondu müəyyənləşdirilən strategiyaya uyğun olaraq özəl bölmənin inkişafına yönələn yeni təşəbbüslərlə çıxış edir, bu sahədə hədəflənən nəticələrin əldə olunmasına çalışır. Prezident Heydər Əliyevin təsdiqlədiyi "Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" sahibkarlıq infrastrukturunun yaradılması, sahibkarlara dövlət maliyyə dəstəyi sisteminin formalaşdırılması, vergi yükünün azaldılması, onlara zəruri texniki yardım göstərilməsi və s. tədbirləri nəzərdə tuturdu. Prezident Heydər Əliyevin imzaladığı "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında", "Azərbaycan Respublikasının Prezidenti yanında Sahibkarlıq Şurasının yaradılması", "Sahibkarlara Kömək Milli Fondunun yaradılması" və "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" fərmanlar iş adamlarının müdafiəsinə, onların hüquqlarının qorunmasına, şəffaflığın təmin edilməsinə, ümumiyyətlə, özəl bölmənin inkişafına hesablanan çoxsaylı tədbirləri əhatə edirdi. Bunlarla yanaşı, Azərbaycanda Ulu Öndərin təşəbbüsü əsasında MDB məkanında ilk dəfə geniş torpaq islahatı həyata keçirilib. Azərbaycan Republikası Prezidentinin 10 yanvar 1997-ci il tarixində imzaladığı "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" müvafiq Fərmanla respublikamızda geniş torpaq islahatına start verildi. Fərmanda nəzərdə tutulan tədbirlərin reallaşdırılması sayəsində respublikamızda mövcud olmuş 2032 təsərrüfat, yəni kolxoz və sovxozlar ləğv edilərək onların əkinəyararlı münbit torpaqları əhaliyə paylandı. İşğal olunmuş rayonlarımız istisna olmaqla ölkəmizdə torpaq payı almaq hüququ olan 870 min ailəyə torpaq payı verildi. Bu, 3 milyon 442 min 778 subyekt demək idi. Azərbaycan vətəndaşlarının heç bir əvəz ödəmədən torpaq mülkiyyətçilərinə çevrilməsi respublikanın kənd təsərrüfatında, sözün əsl mənasında, dönüş yaratdı. Bu amil torpaqlardan daha səmərəli şəkildə istifadə edilməsini şərtləndirdi ki, bu da son nəticədə ölkəmizdə ərzaq məhsulları istehsalının artması ilə nəticələndi. MDB məkanının digər ölkələrindən fərqli olaraq Azərbaycanda vətəndaşlara yararsız və ya azyararlı torpaqlar deyil, keçmiş kolxoz və sovxozların ən münbit torpaqları verildi. Başqa bir önəmli cəhət ondan ibarət idi ki, respublikamızın bütün vətəndaşları harada yaşamasından və kimliyindən asılı olmayaraq torpaqlardan istifadə və icarə hüququ qazandılar. Fermerlərin torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilmələri, büdcəyə olan vergi borclarının silinməsi, onlara yanacağın güzəştli qiymətlərlə satışı, habelə fermer təsərrüfatları üçün kredit resurslarının ayrılması və həyata keçirilən digər tədbirlər aqrar islahatların daha sürətlə aparılmasına imkan yaratdı. Ümummilli Liderin siyasi iradəsi əsasında zamanında aqrar sektorda zəruri olan bu və ya digər tədbirlərin həyata keçirilməsi nəticəsində bu gün ölkənin kənd təsərrüfatında özəl sektorun xüsusi çəkisi, demək olar ki, 100 faizə çatıb.

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEV ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİNİ DAİM DİQQƏTDƏ SAXLAYIRDI

Bunlarla yanaşı, Ulu Öndərin həyata keçirdiyi strateji kursun çox mühüm istiqamətlərindən birini sosial-iqtisadi siyasət təşkil edirdi. Əhalinin sosial rifahının gücləndirilməsi, etibarlı sosial müdafiə sisteminin yaradılması daim Heydər Əliyevin diqqətində idi. 1995-ci ildə qəbul olunmuş ilk milli Konstitusiyada xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, sosial müdafiəsinin, layiqli həyat səviyyəsinin təmin olunması ən yüksək səviyyədə əksini tapmışdı. Şəhid ailələrinə, müharibə veteranlarına, əlilliyi olan şəxslərə, məcburi köçkünlərə, pensiyaçılara, sosial müavinət və təqaüd alan şəxslərə və digərlərinə dövlət tərəfindən göstərilən sosial müdafiə mexanizmləri ciddi şəkildə gücləndirilmişdi. Təkcə 1993-2003-cü illərdə pensiya və müavinətlər 8 dəfə, orta aylıq əməkhaqqı 6 dəfə artırılmışdı. Bu fakt göstərir ki, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 10 il ərzində sosial müdafiə sistemində mühüm islahatlar aparılıb və əhalinin rifah halının yüksəldilməsi istiqamətində həyata keçirilən siyasət davamlı xarakter daşıyıb. Digər tərəfdən, MDB məkanında ilk dəfə olaraq Azərbaycanda yeni sosial-iqtisadi münasibətlər sisteminə uyğun Əmək Məcəlləsi, eləcə də demoqrafik inkişaf konsepsiyası, məşğulluq, əmək miqrasiyası və digər sahələrlə bağlı qanun və qərarlar qəbul olunub.

### ÜMUMMİLLİ LİDERİN SİYASİ KURSU PREZİDENT İLHAM ƏLİYEV TƏRƏFİNDƏN UĞURLA DAVAM ETDİRİLİR

Azərbaycan Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasəti müasir dövrün tələblərinə müvafiq surətdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, siyasi, iqtisadi, sosial, hüquqi və digər istiqamətlərdə reallaşdırılan islahatlar bu inkişafın davamlı olacağına əminlik yaradır. Təsadüfi deyil ki, son illər ərzində dünya miqyasında bütün parametrlər baxımından Azərbaycan kimi sürətlə inkişaf edən ikinci ölkə olmayıb.

Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən sistemli, kompleks xarakterli çoxşaxəli islahatlar bütün sahələrdə inkişaf dinamikasını təmin etməklə yanaşı, yeni nailiyyətlərin əldə olunmasını şərtləndirib. Prezident İlham Əliyev ölkədə biznes mühitinin optimallaşdırılması, bank-maliyyə sektorunda inklüzivliyin daha da artırılması, daxili istehsalın qorunması, vergi bazasının genişləndirilməsi, gömrük nəzarətinin sadələşdirilməsi və şəffaflığın təmin olunması, istehsal imkanlarının artırılması, investisiya qoyuluşunun, ixracın təşviq edilməsi, "Made in Azerbaijan" brendinin yaradılması və sosial sfera da daxil olmaqla digər sahələri əhatə edən çoxsaylı Fərman və sərəncamlar imzalayıb. Dövlət başçısının müvafiq Fərmanına əsasən milli iqtisadiyyat perspektivi və onun 11 əsas sektoru üzrə strateji yol xəritələri təsdiqlənib. Bəhs olunan strateji yol xəritələrində ayrı-ayrı istiqamətlər üzrə yaxın, orta və uzunmüddətli dövr üçün inkişaf prioritetləri və onlara çatmaq üçün görüləcək tədbirlərin geniş spektri müəyyənləşdirilib. Bəhs olunan dövrdə respublikamızda ümumi daxili məhsul istehsalı 3,3 dəfədən çox artıb ki, bu da bütün dünya üzrə rekord göstəricidir. Eyni zamanda, milli iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyi artıb. Davos İqtisadi Forumunun müvafiq hesabatında göstərildiyi kimi, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətlilik indeksi üzrə dünyada 35-ci, MDB məkanında isə lider mövqedə qərarlaşıb. Yenə Davos Forumunun dəyərləndirmələrinə əsasən, respublikamız inklüziv inkişaf indeksi üzrə inkişaf etməkdə olan ölkələr sırasında 3-cü yeri tutur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: **"Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edildi, insanların rifah halı yaxşılaşdı və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır".**

### DÖVLƏT SİYASƏTİNİN MƏRKƏZİNDƏ AZƏRBAYCAN VƏTƏNDAŞI DAYANIR

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mühüm səciyyəvi xüsusiyyətlərindən biri sosialyönümlü olmasıdır. Başqa sözlə, ölkədə dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır. Prezident İlham Əliyevin müvafiq Fərman və sərəncamları əsasında şəhid ailələrinə, məcburi köçkünlərə, tələbələrə, əlilliyi olan şəxslərə verilən müavinətlərin, minimum aylıq əməkhaqqının, pensiyaların artırılması və digər nümunələr bu reallığın bariz nümunəsidir. Son bir il ərzində həyata keçirilən sosial islahatlar paketi 3 milyon vətəndaşın rifahının ciddi şəkildə yaxşılaşmasına, bütövlükdə əhalinin həyat şəraitinin daha da yaxşılaşmasına imkan yaradıb. Əməkhaqları və pensiyaların da davamlı olaraq artırılması dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu və nümunəvi sosial siyasətin mühüm tərkib hissəsini təşkil edir. Bu tendensiya 2019-cu ilin əvvəlindən aktiv şəkildə icrasına başlanılan böyük sosial paket çərçivəsində də davam etdirilir. Məlum olduğu kimi, Prezident İlham Əliyev 8 fevral 2019-cu il tarixində imzaladığı "Minimum aylıq əməkhaqqının artırılması" və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" müvafiq Sərəncama əsasən, ölkəmizdə minimum əməkhaqqının yaşayış minimumuna (180 manat) çatdırılması təmin edilib. Minimum əməkhaqqının mart ayının 1-dən etibarən 180 manata çatdırılması dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artıma gətirib çıxarıb. Digər tərəfdən, ötən il əmək pensiyalarının orta aylıq məbləğində 6,8 faiz, o cümlədən yaşa görə əmək pensiyalarının məbləğində 7,3 faiz artım qeydə alınıb. Prezident İlham Əliyevin 7 fevral 2019-cu il tarixində "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" imzaladığı Sərəncama əsasən, respublikamızda minimum pensiyaların məbləği təxminən 38 faiz artırılaraq 116 manatdan 160 manata çatdırılıb. Bu gün minimum pensiyanın səviyyəsinə görə Azərbaycan MDB məkanında ikinci yerdə qərarlaşıb. Bu faktlar əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımların davamlı xarakter daşıdığını göstərir.

Nəticə etibarilə, Heydər Əliyevin parlaq ideyaları müstəqil Azərbaycanın inkişafının mayakı qismində çıxış edir. Başqa sözlə, Ümummilli Liderin ideyalarına əsaslanan strateji xarakterli dərin islahatlar kursunun Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi Azərbaycanın dinamik, dayanıqlı inkişafını təmin edib, ölkənin qarşısında yeni inkişaf perspektivləri açılıb.

**Hüseyn Paşayev,**
**YAP Siyasi Şurasının üzvü,**
**YAP Mətbuat Xidmətinin rəhbəri**

# Ümummilli Lider Heydər Əliyevin xatirəsi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında anılıb

Mayın 8-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin həyatı boyunca Azərbaycan naminə göstərdiyi xidmətlər misilsizdir. Bu görkəmli şəxsiyyətin onilliklər ərzində Vətənə, xalqa xidmətinin cövhərində böyük mənəviyyat sahibi olması dayanır. Milli və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızı azərbaycançılıq məfkurəsi ətrafında səfərbər etməklə Ulu Öndər Azərbaycan dövlətçiliyinin sarsılmaz əsaslarını yaradıb. Azərbaycan tarixinin 30 ildən artıq bir dövrü, bu illər ərzində xalqımızın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrinin dirçəlişi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ölkənin çətin dövründə - 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev məhz xalqın dəstəyinə arxalanaraq qəbul etdiyi qərarlarla Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi.



S.Möhbalıyev xalqımızın öz dahi oğlunu, ölkəmizin gələcək inkişaf strategiyasını müəyyən edən, onun həyata keçirilməsi üçün mühüm addımlar atan müdrik siyasətçini unutmadığını və heç zaman unutmayacağını vurğulayıb.

Ulu Öndərin qurucusu olduğu müstəqil Azərbaycanın bu gün etibarlı əllərdə olduğunu qeyd edən AHİK sədri Ümummilli Lider Heydər Əliyevin əsasını doyduğu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Bildirib ki, bunun nəticəsində Azərbaycanın dünyada nüfuzu artıb, ölkəmiz beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməklə diqqəti özünə cəlb edib. Bu gün Azərbaycan bütün sahələrdə yüksək sürətlə inkişaf edir, dünya dövlətləri arasında öz yerini daha da möhkəmləndirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi, doğma Vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər Ulu Öndərin başlatdığı yolun davamının sübutudur.

Digər çıxış edənlər Ümummilli Liderin şərəfli və mənalı ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən və misilsiz xidmətlərindən söz açıblar. Bildirilib ki, dahi öndərin müəyyənləşdirdiyi siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək nailiyyətlər əldə edilib.

# YAP Ağstafa rayon təşkilatı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə silsilə tədbirlər keçirir



Yeni Azərbaycan Partiyasının (YAP) Ağstafa rayon təşkilatı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə silsilə tədbirlər keçirir. Bu tədbirlər çərçivəsində mayın əvvəlindən başlayaraq Ağstafa rayonunun təhsil müəssisələrində oxuyan şagirdlər üçün Heydər Əliyev Mərkəzinə ekskursiyalar təşkil edilir. Ekskursiyaların təşkil olunmasında məqsəd Ulu Öndər Heydər Əliyevin zəngin irsini şagirdlərə aşılamaq və şagirdlərin asudə vaxtlarını səmərəli təşkil etməkdir.

Ekskursiyalar zamanı şagirdlərə Ulu Öndər Heydər Əliyevin keçdiyi ömür yolu, həmçinin Azərbaycan tarixində rolu və demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasəti barədə ətraflı məlumat verilir. Həmçinin dahi liderin diqqət və qayğısı sayəsində digər sahələr kimi, elm və təhsil sahəsində də böyük nailiyyətlərin əldə olunduğu bildirilir.

Eyni zamanda, Ümummilli Liderin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi qeyd olunaraq ölkəmizin qazandığı nailiyyətlər barədə ekskursiya iştirakçıları ətraflı şəkildə məlumatlandırılır.

Ekskursiyalar may ayının 10-na qədər davam edəcək.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

# KİVDF-nin təşkilatçılığı ilə media rəhbərləri "Azərenerji"nin fəaliyyəti ilə yaxından tanış olublar

Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) və "Azərenerji" ASC-nin birgə təşkilatçılığı ilə "Azərenerji" ASC ilə kütləvi informasiya vasitələri arasında əlaqələrin genişləndirilməsi" mövzusunda konfrans keçirilib.

Fonddan AZƏRTAC-a bildirilib ki, tədbirdə KİVDF-nin icraçı direktoru Vüqar Səfərli, "Azərenerji" ASC-nin vitse-prezidenti Ziyəddin Quliyev, Səhmdar Cəmiyyətin prezidentinin müşaviri Vüqar Əliyev, ASC-nin sədr müavini Ramil Yusifov, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri iştirak ediblər.





"Azərenerji" ASC-nin vitse-prezidenti Z.Quliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin energetika sisteminin əsaslı şəkildə modernləşdirilməsi, "itirilmiş" generasiya güclərinin bərpası məqsədilə kompleks tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. O, həmçinin bildirib ki, 2018-ci il iyulun 3-də baş vermiş qəzanın təkrarlanmaması məqsədilə "Azərenerji" ASC tərəfindən hazırlanaraq dövlət başçısına təqdim edilən "Reabilitasiya üzrə Tədbirlər Planı" əsasında ötən ilin sentyabrdan etibarən təxirəsalınmaz tədbirlər görülür.

"Azərenerji"nin vitse-prezidenti proqram çərçivəsində son 3 ay ərzində "Cənub", "Şimal" və "Bakı" elektrik stansiyalarında görülən işlər nəticəsində 230 meqavat gücün bərpa edildiyini vurğulayıb: **"Bundan əlavə, "Azərbaycan" İstilik Elektrik Stansiyasının (İES) 6 saylı enerji blokunda kompleks yenidənqurma işləri aparılıb və nəticədə təmirdən sonra 6 saylı enerji blokunda 60 meqavat yük məhdudiyyəti aradan qaldırılıb. Ümumilikdə, "Reabilitasiya proqramı" çərçivəsində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İES tamamilə yenidən qurulur. Yəni turbinlər, generatorlar, rele mühafizə sistemi, sexlər, yarımstansiyalar, 500 və 330 kilovoltluq hava xətləri, əks qəza avtomatikası yenidən qurularaq bərpa edilir. Yanğınsöndürmə, inzibati bina, idarəetmə mərkəzi tikilir. Yuxarı Qarabağ kanalının üzərindən əhali üçün yeni körpü və yol salınacaq, yeraltı soyutma su boru sistemləri bərpa ediləcək. Görülmüş işlər nəticəsində stansiyanın gücü 320 meqavat artaraq 2000 meqavata çatacaq".**

Z.Quliyev, həmçinin vurğulayıb ki, "Reabilitasiya proqramı" çərçivəsində Bakı şəhərində, habelə regionlarda infrastruktur və sahibkarlıq obyektlərinin elektrik enerjisi ilə təchizatında mühüm rol oynayan "Bakı", "Astara", "Şəki", "Xaçmaz", "Şahdağ" və "Səngəçal" modul tipli elektrik stansiyalarında da itirilmiş gücün bərpası istiqamətində işlər aparılır. Bildirib ki, bir çox elektrik stansiyaları və yarımstansiyaların 500, 330, 320, 110 kilovoltluq hava xətləri, o cümlədən yarımstansiyaların yenidən qurulması işləri aparılır. Qeyd edib ki, "Reabilitasiya Proqramı"na müvafiq olaraq hazırda yüksəkgərginlikli elektrik verilişi xətlərində modernləşmə həyata keçirilir, enerjinin idarə edilməsi üçün SCADA dispetçer sisteminin yenidən qurulması istiqamətində işlər görülür.

ASC-nin vitse-prezidenti görülmüş işlərin ictimaiyyətə geniş və obyektiv şəkildə çatdırılması baxımından təmsil etdiyi qurumun media ilə əməkdaşlığa daim açıq olduğunu bildirib. O, belə bir tədbirin təşkilində KİVDF-nin dəstəyini yüksək dəyərləndirib.

KİVDF-nin icraçı direktoru V.Səfərli fondun fəaliyyət göstərdiyi 10 il müddətində ölkədə fikir, söz və məlumat azadlıqlarının inkişafına, çap mediasının maddi-texniki bazasının möhkəmləndirilməsinə, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılmasına, eləcə də sosial müdafiəsinin və mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına xidmət edən çoxsaylı layihələr həyata keçirdiyini diqqətə çatdırıb.

V.Səfərli mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əməkdaşlığın genişləndirilməsi məqsədinə xidmət edən tədbirlərin, eləcə də birgə fərdi yazı müsabiqələrinin təşkilinin fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu qeyd edib. İcraçı direktor, həmçinin bildirib ki, "Azərenerji" ASC ilə birgə keçirilən konfransın məqsədi Azərbaycanın enerji təhlükəsizliyinin davamlı olaraq təmin edilməsi, elektrik enerjisinə artan tələbatın etibarlı və dayanıqlı şəkildə ödənilməsi, bu sahədə əsaslı modernləşmənin aparılması ilə əlaqədar reallaşdırılan tədbirlərin ictimaiyyətə dolğun şəkildə çatdırılmasıdır.

Azərbaycanın nəinki qonşu ölkələrə, eləcə də bir sıra nüfuzlu Avropa ölkələrinə elektrik enerjisi ixrac etməsini, habelə "Azərenerji" ASC-nin Avropa miqyasında keçirilən tenderlərin qalibi olmasını yüksək dəyərləndirən V.Səfərli son aylarda səhmdar cəmiyyətin fəaliyyətində əhəmiyyətli dəyişikliklərin hiss olunduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən "Azərişıq" ASC-nin sədr müavini R.Yusifov 2015-ci il fevralın 10-da "Bakıelektrikşəbəkə"nin bazasında ASC-nin yaradılmasından sonra istehlakçıların keyfiyyətli enerji təminatı sahəsində kompleks tədbirlərin həyata keçirildiyini, infrastrukturun müasirləşdirildiyini, qabaqcıl texnologiyaların tətbiq edildiyini diqqətə çatdırıb. "Azərişıq" ASC-nin sədr müavini ölkə rəhbərliyi tərəfindən müəyyənləşdirilmiş strateji vəzifələrə müvafiq olaraq ASC-nin istehlakçıların etibarlı və dayanıqlı elektrik enerji ilə təchizatı istiqamətində sistemli iş apardığını xüsusi vurğulayıb. Bildirib ki, son illərdə yeni generasiya güclərinin yaradılması hesabına Azərbaycan elektrik enerjisi sahəsində idxalçıdan ixracatçıya çevrilib, Bakı şəhərinin və regionların fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təchizatındakı fasilələr aradan qalxıb.

"Azərenerji" ASC sədrinin müşaviri V.Əliyev çıxışında "Reabilitasiya Proqramı" çərçivəsində energetika sistemində çalışan 5 min 600-dək əməkdaşın sosial vəziyyətinin yaxşılaşdırılması, onların əməkhaqlarının yüksəldilməsi, habelə peşə hazırlığı səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərdən söz açıb.

Sonra tədbir diskussiya formatında davam etdirilib. Görüşdə çıxış edən Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədov, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Trend" İnformasiya Agentliyinin baş direktorunun müavini Arzu Nağıyev, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli səhmdar cəmiyyətin fəaliyyətində son aylarda qabarıq hiss olunan yenilikləri təqdir edərək qurumun yeni rəhbərliyinin müasir tələblərə cavab verən islahatlarını razılıqla vurğulayıblar.

Daha sonra media rəhbərlərini maraqlandıran suallar ətraflı cavablandırılıb.

KİVDF-nin icraçı direktoru V.Səfərli diqqətə çatdırıb ki, keçirilən tədbirin yekunu olaraq "Azərenerji" ASC və fondun birgə təşkilatçılığı ilə "Azərenerji" ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər" mövzusunda birgə fərdi jurnalist yazıları müsabiqəsinin keçirilməsi nəzərdə tutulur. Mayın 10-dan iyulun 5-dək keçiriləcək müsabiqənin məqsədi "Azərenerji" ASC-nin "Reabilitasiya Proqramı" çərçivəsində görülən və görüləcək işlərin, qarşıya qoyulmuş hədəflərin ictimaiyyətə obyektiv şəkildə çatdırılmasında peşəkar jurnalist yaradıcılığının stimullaşdırılmasıdır.

V.Səfərli sonda media ilə səmərəli əməkdaşlığın genişləndirilməsinə verdiyi töhfəyə görə "Azərenerji" və "Azərişıq" açıq səhmdar cəmiyyətlərinin rəhbərliyinə təşəkkürünü bildirib, belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə edib.




## YAP Mingəçevir şəhər təşkilatı "Heydər Əliyev - Azərbaycanın özü qədər əbədi lider" mövzusunda konfrans keçirib

Yeni Azərbaycan Partiyasının (YAP) Mingəçevir şəhər təşkilatı və Mingəçevir şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibəti ilə Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində "Heydər Əliyev - Azərbaycanın özü qədər əbədi lider" mövzusunda elmi-nəzəri konfrans keçirilib.



Öncə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.

Konfransı giriş sözü ilə açan Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən danışıb. O qeyd edib ki, hazırda Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir. İ.İsmayılov deyib ki, bu gün ölkəmizin əldə etdiyi bütün nailiyyətlərin əsasını Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası təşkil edir: **"Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artması, ölkəmizə etibar olunan beynəlxalq tədbirlər, qazanılan digər uğurlar Ulu Öndər Heydər Əliyev ideyalarının reallaşmasının nəticələridir. Bu, bir daha onu göstərir ki, nə qədər müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı var Heydər Əliyev ideyaları daima yaşayacaq".**

Daha sonra konfransda YAP Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusubov "Ümummilli Lider Heydər Əliyevin keçdiyi şərəfli həyat yolu xalqa bəxş edilən ömürdür", MDU-nun dosenti Səbuhi Qəhrəmanov "Ulu Öndər Heydər Əliyev müstəqil dövlət quruculuğunun yaradıcısıdır", Mingəçevir Turizm Kollecinin müəllimi Aybəniz Əliyeva "Heydər Əliyev - tarixi şəxsiyyət, əbədiyaşar liderdir", YAP Mingəçevir şəhər təşkilatı Gənclər Birliyinin İdarə Heyətinin üzvü Sevinc Bayramova "Müasir Azərbaycan dövlətinin uğurları Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin nəticəsidir" mövzusunda çıxış ediblər.

## Bakcell müharibə veteranlarına həsr olunmuş sərgiyə dəstək göstərib

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Böyük Vətən müharibəsi veteranlarından bəhs edən sərgiyə dəstək göstərib.



9 May - faşizm üzərində Qələbə Gününə həsr olunmuş "Qələbə ruhunu yaşadanlarımız" adlı sərgi "Baki Metropoliteni" QSC tərəfindən "Bakcell"in dəstəyilə "Gənclik" stansiyasının keçidlərində təşkil edilib. Foto-sərgidə Böyük Vətən müharibəsində qəhrəmancasına vuruşmuş canlı əfsanələr - azərbaycanlı veteranların fotolarından ibarət tablolar nümayiş olunur. Bununla yanaşı, Böyük Vətən müharibəsində Azərbaycanın rolu barədə maraqlı, diqqətçəkən məlumatların verildiyi stendlər də sərgilənir.

Müharibə iştirakçıları haqqında daha ətraflı məlumat almaq üçün sərgidəki şəklin altında yerləşdirilən QR koddan istifadə etmək lazımdır.

Serginin açılışı may ayının 7-də "Bakı Metropoliteni" QSC-nin və "Bakcell"in rəsmi nümayəndələri, həmçinin Böyük Vətən müharibəsi cəbhələrində döyüşmüş veteranların iştirakı ilə keçirilib.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU